

# DİNDƏ PASİFİZM

**HARUN YƏHYA**

**İçərinizdə elələri də var ki, cihada çıxdıqda özlərini yubandırar və sizə bir müsibət üz vermiş olduqda: “Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə bəlaya düçar olmadım” – deyər. (Nisa surəsi, 72)**

# MÜNDƏRİCAT


GİRİŞ

MÜSƏLMANLAR ARASINDAKI PASSİV İNSANLAR

MÜSƏLMANLARIN ARASINDA YAŞAYAN
PASSİV İNSANLARIN HANSI MƏQSƏDLƏRİ VAR?

MÜSƏLMANLARI NECƏ
PASSİVLƏŞDİRMƏYƏ ÇALIŞIRLAR?

PASSİV İNSANLARIN XÜSUSİYYƏTLƏRİ

NƏTİCƏ

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr

də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Passiv sözünün lüğətdəki mənası "bir şeyə qarşı reaksiya verməyən, aktiv olmayan, durğun, utancaq"dır. "Passiv bir insan" dedikdə xarakter etibariylə şövqsüz, ətrafında baş verən hadisələrlə maraqlanmayan, insanların sıxıntıları və problemləri ilə maraqlanmayan, ətrafındakı çatışmazlıqlara çıxış yolu tapmaq niyyətində olmayan, utancaq, öz kiçik aləmində yaşayan bir insan modeli ağıla gəlir. Bu kitabda, bəhsi keçən durğun xarakteri qəsdən nümayiş etdirərək bu çirkin modeli hiyləgərcəsinə müsəlmanlar arasında yaşatmağa çalışan insan xarakterini izah edəcəyik. Bu insan modelini "pasifist", yəni "pasifizmi müdafiə edən" kimi qeyd edəcəyik.

Müsəlmanlar arasında olan bəzi insanlar iman edənlərin imani şövq və həyəcanına uyğun gəlməyən bir xarakterə sahib ola bilərlər. Bu kəslər müsəlmanların yaşadığı yüksək iman həyəcanını içlərində yaşamaz, onların xoşbəxtlik və hüzurundan uzaq, soyuq və donuq bir həyat yaşayarlar. Bu kəslər, Allahın böyüklüyünü anlamağı, Quran əxlaqını mənimsəməyi istəmədiklərindən, din əxlaqının yaşanması və izah edilməsi məqsədiylə edilən hər cür cəhddə həmişə geridə qalan, hadisələri uzaqdan izləməklə kifayətlənən bir görünüş nümayiş etdirərlər. Nə həyatlarında, nə də iman anlayışlarında aktiv, ağıllı və sağlam bir yanaşma tərzləri yoxdur.

Sevgi, yaxınlıq, səmimiyyət, dostluq, qardaşlıq, sədaqət, vəfa, bağlılıq kimi Allahın razı olacağını bildirdiyi müsəlmanların üstün əxlaq xüsusiyyətlərindən məhrumdurlar. Bu kəslər qəsdən tətbiq etdikləri passivlikləri, cansız, şövqsüz və donuq şəxsiyyətləriylə ətraflarındakı insanlara mənfi təsir edən, soyuq, laqeyd, olduqca ciddi və yaxınlıq qurulması qeyri-mümkün olan, bunların hamısından vacibi də Allah qorxuları olmayan, xain xarakterli insanlardır. Allah Quranda, **"içərinizdə elələri də var ki, cihada çıxdıqda özlərini yubandırar və sizə bir müsibət üz vermiş olduqda: "Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə bəlaya düçar olmadım" – deyər." (Nisa surəsi, 72)** ayəsiylə müsəlmanlara bu xarakterdəki insanların şəxsiyyətlərindən xəbər verir.

Allah Quranda olan daha bir çox ayə ilə, müsəlmanların Quran əxlaqını təbliğ etməkdəki şövqlərini və aktivliklərini, asta davranaraq yox etməyə çalışan bu xarakterdəki insanları bizlərə tanıdır. Onların bu hiyləgər sakitliklərinin və astalıqlarının altında yatan həqiqi niyyətlərini, gizli planlarını başa düşməyimizi təmin edən olduqca əhəmiyyətli məlumatlar verir.

Müsəlmanları passivləşdirməyi qarşılarına məqsəd qoyan bu insanlar, möminlərlə birlikdə yaşayan, iman etdiyini deyən ancaq münafiq xarakterli rəftarlar göstərən və ya qəlblərində xəstəlik olan insanlar ola bilər və ya hələ imanı tam olaraq qavraya

bilməmiş, Allahı lazım olduğu kimi təqdir edə bilməyən zəif imanlı kəslər ola bilər. Bu insanlar, möminlərin arasında olmalarına baxmayaraq din əxlaqını başa düşməkdə və yaşamaqda bitərəf, zəif davranar, digər möminlərin də özləri kimi olmalarını istəyərlər. Bunlarla yanaşı, cahiliyyə əxlaqını yaşayan və ya inkar edənlər arasında da müsəlmanları zəiflətmək, şövqlərini və həyəcanlarını yox etmək istəyən kəslər ola bilər və bu insanlar da möminlərin fəaliyyətlərinə maneə törədə bilmək üçün var gücləriylə çalışarlar. Bütün bu kəslər, möminləri passivləşdirmək üçün açıq şəkildə fəaliyyət göstərə biləcəkləri kimi, hiyləgər və gizli üsullardan da istifadə edə bilərlər. Məsələn, münafiqlər və qəlblərində xəstəlik olan kəslər, inkar edənlərlə əməkdaşlıq edərək öz aləmlərində açıq şəkildə möminlərin əleyhinə tələlər qura bilərlər. Beləcə, iman edənlərin ziyana uğramasını hədəfləyərlər. Bununla birlikdə, verdikləri məkrli təlqinlər, neqativ söhbətlər və davranışlarıyla da iman edənləri passivləşdirməyə çalışa bilərlər.

Digər tərəfdən bu insanların demək olar ki, hamısının ortaq olan bəzi aspektləri var. Bu əlamətlərin, iman edənlərin arasında olsalar da, onlardan uzaqda olsalar da bəhsi keçən insanlarda yaranması qaçınılmazdır. Əqli zəiflik, fərasətsizlik, tənbəllik, qorxaqlıq, xəyanətkarlıq, hiyləgərlik, mal ehtirası, neqativlik, sevgisizlik, qürur, qısqanclıq kimi -səmimi möminlərdə Allahın izni ilə əsla rast gəlinməyən- bəzi əsas xüsusiyyətlər, bu kəslər üzərində tez-tez müşahidə olunar. Bu ortaq xüsusiyyətlər, müxtəlif mühitlərdə və ya eyni mühitlərdə belə olsalar bu kəslərin, lazım gəldikdə möminlər əleyhində ittifaq edə bilmələrinə səbəb olar.

Buna görə də kitab boyu, əsas olaraq müsəlmanların arasında yaşayan və onları passivləşdirməyə çalışan kəslərin istifadə etdikləri gizli və açıq üsullar araşdırılarkən, bir tərəfdən də bu kəslərlə ittifaq etmə imkanına sahib inkarçıların xüsusiyyətlərinə toxunulacaq. Beləcə, iman edənləri passivləşdirmək niyyətində olan bütün insan xarakterləri ifşa ediləcək. Müsəlmanlara düşən vəzifənin, din daxilində passiv və şövqsüz bir müsəlman modeli yaratmaq istəyən bu pis niyyətli insanlara qarşı, Quran ayələrində bildirilən fikri mübarizəni həyata keçirmək və onların digər insanları da passivləşdirmələrinə mane olmaq olduğu izah olunacaq.

# MÜSƏLMANLAR ARASINDAKI PASSİV İNSANLAR

Müsəlmanlar bütün ömürlərini Allahın rizasını qazanmağa həsr etmiş, cənnətə daxil olmağa ümid edən, səmimi insanlardır. Bu məqsədləri onları hər an aktiv, şövqlü və oyanıq saxlayır. İçində olduqları şərtlər və mühit dəyişsə də onların bu vəziyyətləri heç dəyişməz, səmimi, şövqlü, Allaha qarşı təslimiyyətli rəftarlarını qoruyarlar. Allahın əmr və qadağalarına qarşı həssaslıqlarını hər an mühafizə edərlər. Allaha səmimi olaraq iman edən bir insan, bütün hadisələrin Allahın nəzarəti altında və təyin etdiyi taleyə görə baş verdiyinə qəti olaraq iman edər, hər çətinlikdən sonra mütləq bir asanlıq gələcəyinə inanar. Allah bu həqiqəti Quranda belə bildirir:

**Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir. (İnşirah surəsi, 5-6)**

**... Allah heç kəsin üzərinə Özünün ona verdiyi nemətdən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi, 7)**

Müsəlmanlar, Allahın sözünün mütləq yerinə yetəcək bir vəd olduğuna qəti olaraq inandıqları üçün, hələ ən başından bir hadisənin bütün mərhələlərində mütləq yaxşı şeylərin baş verəcəyinə və bu hadisənin ən xeyirli şəkildə nəticələnəcəyinə inanırlar. Bu, Allaha qəti olaraq inanan və Quranın haqq kitab olduğunu bilən insanların iman formasıdır. İmanlarındakı bu qəti qərarlılıq sayəsində müsəlmanlar, dünya həyatında hər an aktiv, şövqlü, imanın gətirdiyi gözəl bir coşğu içində yaşayarlar. Allahın Quranda bildirdiyi kimi "yaxşı işlər görməkdə yarışan", həmişə gözəl əxlaq üçün səy göstərən bir xarakter göstərərlər. Müsəlmanların bu şövqlü xarakteri ayələrdə belə xəbər verilir:

**Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin. (Ali İmran surəsi, 133)**

**Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, sərhəd boyu növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız! (Ali İmran surəsi, 200)**

**Belələri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər. (Ali İmran surəsi, 114)**

Həqiqi müsəlmanlar Allahın rizasını qazanmaqda və gözəl əxlaqda göstərdikləri şövq və həyəcan ilə digər insanlardan fərqlənərlər. Ancaq "mən müsəlmanam" deyən bəzi insanların dedikləri ilə qəlblərində gizlətdikləri fikirlər çox fərqli ola bilər. Müsəlman olduğunu iddia edən bir adam iman etdiyini deyərkən əslində olduqca zəif bir imana sahib ola bilər, hətta bir gün gələndə Allahın varlığından və axirətdən yana ciddi şübhələri olan bir adam olaraq ortaya çıxa bilər. Allah belə insanları Həcc surəsinin 53-cü ayəsində "qəlbində xəstəlik olan" və "qəlbi sərt olan" insanlar olaraq təyin etmişdir. Allahın ayələrinin reallaşması qarşısında belə, bəhsi keçən insanların qəlbində səmimi bir şövq və gözəl əxlaqlı olma mövzusunda bir qərar vermək istəyi meydana gəlməz. Buna baxmayaraq, səmimi müsəlmanların davranışlarını müəyyən bir müddət təqlid edərək, bütün bu gözəllikləri yaşayırmış kimi bir görünüş verməyə çalışa bilərlər.

Özlərini saleh bir müsəlman kimi göstərməyə çalışdıqları bir halda, bir tərəfdən həqiqi müsəlmanları da özləri kimi passiv bir xarakterə sürükləməyə cəhd edə bilərlər. Quran əxlaqından uzaq bir həyat yaşamağı məsləhət göstərməyi qarşılarına məqsəd qoyar, müxtəlif hiylələrlə inananları cahilik həyatına çəkməyə çalışa bilərlər. Ancaq bu insanlar hər nə edirlərsə etsinlər, Allahın dininə və səmimi qullarına bir zərər verə bilməz, onları doğru yoldan sapdıra bilməzlər. Rəbbimiz vaxtı gəldikdə onların qəlbindəki xəstəliyi ortaya çıxarar:

**Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq? (Məhəmməd surəsi, 29)**

Sonrakı hissələrdə təfərrüatlı olaraq izah edəcəyimiz kimi müsəlmanların içində hiyləgərcəsinə passiv, tənbəl və zəif bir xarakter yaratmaq məqsədi güdərək, müsəlmanların arasında özlərini gizlədən bu insanlar heç bir nəticə əldə edə bilməzlər. Həqiqi niyyətlərini ortaya qoymaları müsəlmanlar üçün təəccüblü olmaz. Çünki yuxarıda qısaca ifadə etdiyimiz kimi, onlar öz səmimiyyətsizliklərini bildirmələrindən xeyli əvvəl fərasət və bəsirət sahibi müsəlmanlar bu kəslərin qəlblərindəki xəstəliyi, imani zəifliklərini -Allahın izni ilə- diaqnoz edərlər. Onların qeyri-ciddi olmalarından heç bir şəkildə təsirlənməz, əksinə Quran əxlaqını yaşamaları üçün onlara ayələrlə öyüd-

nəsihət verər və xatırlatmalar edərlər. Quranın **“Onlar o kəslərdir ki, Allah onların qəlblərində olanı bilir. Elə isə onlardan üz döndər, onlara öyüd-nəsihət ver və özləri barədə onlara təsir göstərə biləcək söz söylə”. (Nisa surəsi, 63)** hökmünə görə səmimi olaraq iman etməyən bu kəslərə təsir edəcək sözlər deyərlər.

Ancaq müsəlmanların yaxşı niyyəti və hər cür səyinə baxmayaraq, bu insanların bir çoxu küfrlərindən əl çəkməz. Allah bu insanların vəziyyətini belə xəbər vermişdir:

**Rəbbinin ayələri yadına salınarkən onlardan üz döndərən, əvvəlcə öz əlləri ilə etdikləri günahlarını unudan adamdan daha zalım kim ola bilər? Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən onları doğru yola çağırsan da, onlar heç vaxt doğru yola gəlməzlər. (Kəhf surəsi, 57)**

Saleh müsəlmanlar, bu ciddi təhlükəyə qarşı ayıq-sayıq olmalıdırlar. Allah bir ayəsində **“...yəqinliklə inanmayanlar səni qeyri-ciddi olmağa (dindən dönməyə) sövq etməsinlər” (Rum surəsi, 60)** deyə buyurmuşdur. Buna görə də müsəlmanlar hər cür zəiflik və şövqsüzlükdən və bu görünüşü verəcək rəftarlardan uzaq durmalı, insanları bu çirkin rəftarlara təşviq edən kəsləri da xəbərdar etməlidirlər. Çünki Allah, Quran ayələrinin yaşanmasına mane olmaq mövzusunda səy göstərən insanların aqibətini bizə belə xəbər vermişdir:

**Ayələrimizi qüvvədən salmağa cəhd göstərənlər isə əzaba giriftar ediləcəklər. (Səba surəsi, 38)**

**Ayələrimizi qüvvədən salmağa cəhd göstərənlər isə Cəhənnəm sakinləridirlər. (Həcc surəsi, 51)**

# MÜSƏLMANLARIN ARASINDA YAŞAYAN PASSİV İNSANLARIN HANSI MƏQSƏDLƏRİ VAR?

Pasifizmin ən vacib təhlükələrindən biri, bu zehniyyəti müdafiə edən insanların müsəlmanlar arasında yaymağa çalışdıqları xarakterdir. Öz mənfəətlərini və rahatlıqlarını, dinin mənfəətindən və müsəlmanlardan üstün tutan kəslərin ən diqqət yetirilməli olan cəhətlərindən biri də, münasibət və davranışları ilə digər insanlara, xüsusilə də, zəif xarakterli olan kəslərə gizli şəkildə verməyə çalışdıqları mesajdır. Bu mesajın nə mənaya gəldiyini başa düşə bilmək üçün, pasifizmi müdafiə edən insanların xarakterlərini və zehniyətlərini yaxşı analiz etmək lazımdır. Çünki bu insanlar çox vaxt, Allahın adından istifadə edə bilir, davranışlarını guya dindar olduqlarını qarşıya qoymaqla izah edə biləcəklərini güman edirlər. Buna görə də müsəlmanların bu mövzuda çox diqqəti olmaları, pasifist insanların verdikləri təlqinlərin nələrə başa gələ biləcəyini yaxşı müəyyənləşdirmələri, lazımlı tədbirləri görmələri olduqca əhəmiyyətlidir. Eyni əxlaqdakı insanlar Peyğəmbərimiz (s.ə.v) dövründə də yaşamış və özləri möminlərlə birlikdə döyüşməkdən qaçdıqları kimi, digər müsəlmanları da mübarizədən uzaqlaşdırmaq üçün fəaliyyət göstərmişlər. Bu insanların vəziyyətini Rəbbimiz belə bildirmişdir:

**Allah aranızdan camaatı cihaddan çəkindirənləri və öz qardaşlarına: "Bizə qoşulun!" – deyənləri tanıyır. Onlar nadir hallarda döyüşə qatılırlar. (Əhzab surəsi, 18)**

Quranda bir çox ayədə təsvir edilən bu xarakterin ən diqqətə çarpan xüsusiyyəti, inkarçı ideologiyalara qarşı həyata keçirilən fikri mübarizədən mümkün olduğu qədər qaçmaq və digər möminləri də belə bir mübarizədən uzaq tutmaqdır. Bu kəslər həm rəftarlarıyla, həm də danışıqlarıyla, fikri mübarizənin əhəmiyyətini yüngülləşdirməyə, möminlərin diqqətini başqa yerlərə çəkməyə cəhd göstərərlər. Fikri mübarizədə iştirak etmək əvəzinə, geridə qalmağı seçərlər. Şövq və həyəcanın, Allah yolunda səy göstərməyin özlərini ziyana uğradacağını irəli sürərlər. Ancaq ziyana uğramayacaqlarını düşünərlərsə, möminlərə qoşula bilərlər. Halbuki iman edənlərin, Allaha və axirət gününə inanmayan, din əxlaqından uzaq yaşayan kəslərin fikir sistemlərinə qarşı, onları doğru yola dəvət etmək, müdafiə etdikləri azğın ideologiyaları fikirlə məğlub etmək üçün həyata keçirdikləri mübarizə, tarixi bir mübarizədir. Quranda bildirilən peyğəmbərlərin hekayələrində də bu fikri mübarizənin nümunələri görünür.

Allahın varlığına və birliyinə iman edən, axirətdə hesaba çəkiləcəyini dərk edən, Quran əxlaqını bilən insanların digər insanlara da bu həqiqətləri izah etmələri, şübhəsiz ki, çox böyük bir məsuliyyətdir. İnsanların bir qismi məlumatsızlıq, bir qismi də səhv məlumatlandırma səbəbiylə Quran əxlaqını yaşamır. Quran əxlaqının lazım olduğu kimi yaşanmaması isə, indiki vaxtda insanlara böyük sıxıntı verən sui-istifadə hallarının, əxlaqsızlığın, qarşıdurmaların, yoxsulluqların əsasında iştirak edən əsl ünsürdür. Digər tərəfdən, dünyanın bir çox yerində müsəlmanlar da böyük sıxıntı və problemlərlə üz-üzədir. Müsəlman qadınlar və kişilər "Rəbbimiz Allahdır" dedikləri üçün zülmə məruz qalır, günahsız uşaqlar güllələnir, qaçqın düşərgələrində minlərlə müsəlman yoxsulluq içində həyatlarını davam etdirməyə çalışırlar. Bu mənzərə qarşısında, edilməli olan, əlbəttə ki, yalnız müsəlmanlara deyil, ehtiyac içində olan bütün insanlara təcili surətdə yardım əlini uzatmaqdır. Həmçinin, bu məzlum insanların problemlərinə müvəqqəti deyil, daimi çıxış yollarının tapılması da şərtdir. Problemin dindənkənar ideologiyaların təlqinlərindən və tətbiqlərindən qaynaqlandığı həqiqəti göz qarşısında saxlanıldıqda, çıxış yolunun da Quran əxlaqının mümkün olduğu qədər sürətli bir şəkildə yayılması olduğu aydın görünür. Bir ayədə belə buyurulur:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" - deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**

Vəziyyət belə olduqda, passivlik tərəfdarı kəslərin, müsəlmanları tənbəl bir xarakterə sövq etmək cəhdləri, onları olduqca əhəmiyyətli olan bu fikri mübarizədən geri saxlamaq istəmələri, zəif imanlı kəslərə də mübarizənin lazım olmadığı yanılmasını təlqin etmələri çox ciddi bir vəziyyətdir. Məhz bütün səbəblərdən ötrü bu kəslərin bəhs edilən məqsədlərinə çatmaq üçün tutduqları yollar, gizli və açıq tətbiq üsulları bilinməli və ifşa edilməlidir. Bu kəslərin saxta təlqinlərinə, passivliklərinə və tənbəlliklərinə qarşı görüləcək tədbir isə, möminlərin özlərini və mömin qardaşlarını sövq edici bir rəftar içində olmaları, əzmlə, şövqlə və sevgiylə işlərinə davam etmələridir. **"...Möminləri də döyüşə təşviq et!..." (Nisa surəsi, 84)** həm hər müsəlmanın məsuliyyətidir, həm də bəhsi keçən kəslərin fitnələrinə qarşı ən əhəmiyyətli maneələrdən biri olacaq.

Sonrakı sətirlərdə din əxlaqında bitərəf davranan, passiv qalmağı seçən bu insanların əsl məqsədlərini araşdıracağıq.

### Azğın din anlayışlarını yaymaq istəyərlər

Möminlərin arasında onları passivləşdirməyə çalışan kəslərin əslində həqiqətdə Quran əxlaqından tamamilə uzaq, olduqca yanlış bir din anlayışları var. Bu anlayışlarının ən diqqətə çarpan xüsusiyyətlərindən biri isə, dini tam yaşamamaları və əslində, **"insanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir..." (Həcc surəsi, 11)** ayəsində buyrulduğu kimi, tam mənasıyla iman etməmələridir. Buna görə də həqiqi mənada dinin bütün hökmlərini yaşamazlar.

Səmimi müsəlmanların isə həyatlarının hər anı Allahın Quranda bildirdiyi kimidir. Yeyib-içmələrindən təmizlik anlayışlarına, sevgi və hörmətlərindən vəfalarına, fədakarlıqlarına qədər yüzlərlə mömin xüsusiyyətinin bir yerdə olmasıyla qazanılan ortaq bir əxlaq strukturları və həyat tərzləri vardır. Həqiqi bir dindar, vaxtaşırı müxtəlif səhvləri olsa da, bu xüsusiyyətlərin hamısını -heç bir güzəştə getmədən- yaşamağa çalışar. Ancaq pasifizmi müdafiə edənlər, dinin bütün hökmlərini Allahın Quranda bildirdiyi şəkildə yaşamadan da, müsəlman olmağın mümkün ola biləcəyini iddia edərlər. Olduqca azğın və Quran əxlaqına uyğun gəlməyən bu inanclarından ötrü də səmimi müsəlmanlara aid bir çox xüsusiyyətdən məhrumdurlar.

Onlar etdikləri hər şeyi təqlidi olaraq edər və müsəlman icması arasında diqqət çəkməmək məqsədilə bir həyat yaşayarlar. Allaha və Peyğəmbərə qeyd-şərtsiz itaət etmək, təvazökarlıq, səmimiyyət, Allaha və möminlərə dərin bir sevgi və hörmət, sədaqət, vəfa, fədakarlıq, incə düşüncə kimi gözəl əxlaq xüsusiyyətlərini bu kəslərdə görmək olduqca çətindir. Məsələn, möminlərin əhəmiyyətli bir xüsusiyyəti olan fədakarlıq onlar üçün tətbiq olunması ən çətin xüsusiyyətlərdən biridir. Çünki bir adamın fədakar olması demək, öz istəklərindən imtina edib qarşı tərəfin mənfəətini ön planda tutması mənasına gəlir. Allah qorxusu zəif olan və ya heç olmayan bu şəxslər üçün isə, bu çox çətin, sanki can yandırıcı olur. Buna görə də ümumiyyətlə fədakarlıq etmələri lazım olan vəziyyətlərdə öz nəfslərindən mümkün olduğu qədər az güzəştə gedərək, yalnız saxta rəftarlar göstərməyi seçərlər. Həmçinin vicdanlarından səmimi möminlər kimi istifadə etməyən, bu kəslərin həmişə "mən mərkəzli" hərəkət etdikləri müşahidə olunar. Möminlər kiçik kimi görünən bir hadisədən mühüm qərarlarına qədər hər anlarında vicdanlarının əmr etdiyi kimi davrandıqları üçün, bu kəslərin rəftarlarını səmimi möminlərin həyatlarıyla müqayisə etdikdə çox diqqət çəkər.

İman edən bir insan üçün meyar Allahın rizasıdır. Passivlik tərəfdarları üçünsə əhəmiyyətli olan öz mənfəətlərinə bir zərər gəlmədən, insanları aldada bilməyi bacarmaqdır. Ətraflarında guya dindar olaraq tanınmaq və bunun üçün də ətrafdakı müəyyən mövzulara diqqət yetirmək bu kəslər üçün kifayətdir. Bu məqsədlə 5 vaxt namaz qıla bilər, oruc tuta bilər, vaxtaşırı kasıblara kömək edə bilər, cəmiyyət içində

olarkən müəyyən qaydalara tabe ola bilərlər. Ancaq pisliklərə qarşı fikri bir mübarizə aparmağa əsla yaxın durmaz, ağıl, fərasət və bəsirət tələb edən işlərdən çəkinərlər.

Bu kəslər üçün məqsəd, minimum işlə öz aləmlərində maksimum fayda təmin etməkdir. Ətraflarındakı insanlara da bunu təlqin edərlər. Əlbəttə ki, nəzərdə tutduqları fayda dünya həyatına istiqamətli mənfəətlərdir. Yoxsa Allah rizası üçün fayda təmin etmək istəyən insanın hər an vicdanlı hərəkət edəcəyi aydındır. İnsanları aldadaraq fayda verəcəyini zənn edənlərin böyük bir yanılma içində olduqları isə, Quranda bizə bildirilmiş olan bir həqiqətdir. Rəbbimiz belə buyurur:

**Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. (Bəqərə surəsi, 9)**

Səmimi olaraq iman edənlər isə, əllərindəki bütün imkanlardan istifadə edərək Allah yolunda gözəl əxlaqı yaymaq üçün səy göstərərlər. Adamın səmimi imanının və elçiyə olan itaətinin ən əhəmiyyətli göstəricilərindən biri, şövqü, həyəcanı və fədakarlığıdır. Möminlər əsl razı salınmalı olanın Rəbbimiz olduğunu bilirlər və yuxularından yeməklərinə, sevdikləri bir filmi seyr etməkdən alver etməyə qədər gündəlik həyatın hər incəliyində, anbaan vicdanlarından istifadə edərək yaşayarlar. Həmişə çox ağıllı, təvəkküllü, şəfqətli, mərhəmətli, incə düşüncəli və təvazökar olurlar. Quran əxlaqını həyatlarına tətbiq etməkdə passiv davranan və dinin əxlaqi əsaslarına əhəmiyyət verməyən kəslərdə isə bu xüsusiyyətlər diqqət çəkici şəkildə əskikdir. Onların seçimləri çox vaxt vicdanlarına görə deyil, nəfslərinə görə olar.

### Müsəlmanları zəiflətməyi və onları ləngitməyi qarşılarına məqsəd qoyarlar

Müsəlmanların arasında yaşayan münafiq xarakterli insanların əsas məqsədlərindən biri öz aləmlərində dinə və müsəlmanlara mümkün olduğu qədər zərər verməkdir. Allahın **"...onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir" (Ali İmran surəsi, 120)** ayəsinin hökmünə görə, əslində heç vaxt müsəlmanlara zərər verə bilməyəcək olsalar da, bu məqsədlərinə çatmaq üçün hər cür fürsətdən istifadə edərlər.

Həmişə xeyir və fayda gətirəcək işlər görmək möminlərin əhəmiyyətli xüsusiyyətlərindəndir. Möminlər bir işlərini bitirdikdən sonra tezliklə başqa bir işə keçərək Allahın rizasını və axirətdə gözəl bir məqamı qazanmağa cəhd edərlər. Onları

passivləşdirməyi qarşılarına məqsəd qoyan insanlar isə tam əksinə, mümkün olduğu qədər passiv davranar, möminlərə də mane olmağa çalışarlar. Möminlərin işlərinə mane olduqları, onların başlarını boş işlərə qatdıqları təqdirdə bir zərər verə biləcəyini, ən azından ediləcək faydalı işləri yubandıra biləcəklərini düşünərlər. İlk baxışda onların başlarını qatmalarıyla möminlərin vaxtlarının getdiyi və bu kəslərin də məqsədlərinə çatdıqları düşünülə bilər. Halbuki Quran əxlaqına görə həqiqət belə deyil. İman edən bir insan üçün etdiyi işin məzmunu deyil, o işi görmək məqsədi əhəmiyyətlidir. Digər bir sözlə, mömin hər an Allah rizası üçün fəaliyyət göstərdiyindən, bu kəslərin maneələrini aradan qaldırarkən də, başqa bir şey üçün səy göstərərkən də -Allahın izni ilə- xeyir qazanar. Axirətdə də Allahdan ən xeyirli qarşılığı alacağını ümid edər.

Pasifist kəslər, möminlərin vaxtlarını almaq üçün ümumiyyətlə, onları özləriylə məşğul edərlər. Məqsədləri möminləri də bu yolla passivləşdirmək, başqa işləriylə məşğul olmalarına mane olaraq müsəlmanlar arasında passiv bir xarakter meydana gətirməkdir. Buna görə də, bütün güclərini və diqqətlərini İslamın xeyiri, müsəlmanların faydası üçün toplayan möminlərin qarşısına, əksəriyyəti süni olaraq yaradılmış şəxsi problemlərləriylə çıxarlar. Əxlaqi pozğunluqları, Qurana zidd rəftarları, etdikləri işlərdəki laqeydlikləriylə iman edənlərin diqqətlərini çəkərlər. Xüsusilə də, çox asanlıqla başa düşə biləcəkləri mövzuları anlamazlıqdan gəlmələri, eşitdikləri bir sözü eşitməmiş kimi davranmaları, tezliklə görülüb bitirilməsi lazım olan bir işi mənasız təfərrüatlara girərək yubandırmaları, asta işləmələri, passiv və şövqsüz olmalarıyla müsəlmanlara mane olmağa və onların sürətlərini kəsməyə cəhd göstərərlər. Tezliklə görülməsi lazım olan bir işi müxtəlif bəhanələr uydurmaqla təxirə salar, edilməməli olan bir şeyi isə edərlər. Cavabını çox yaxşı bildikləri halda sanki heç bilmirmiş kimi təkrar-təkrar eyni sualı soruşar, özlərindən istənilən işi dəfələrlə təsvir etdirərlər. Bütün bu rəftarlardakı ümumi məqsəd, möminlərin vaxtlarını almaq, görüləcək yaxşı işləri mümkün olduğu qədər yubandırmağa çalışmaq və qəlbində xəstəlik olan digər kəslərə də mənfi nümunə meydana gətirməkdir.

Bu kəslər müsəlmanların işlərinə mane olmağı qarşılarına məqsəd qoyub çətinlik yaratmaqla, bir tərəfdən də mömin birliyi içindəki digər şəxslərin də özləri kimi davranmalarını istəyərlər. Onları da qeyri ciddi olmağa sövq etməyi qarşılarına məqsəd qoyarlar. Beləcə həm özlərinin, həm də mümkün olduğu qədər çox adamın asta davranmasını planlayarlar. Onların zəif rəftarlarından güc alan zəif xarakterli digər bəzi kəslər də işləri yubandırmağa, çətinlik yaratmağa, möminləri özləriylə məşğul etməyi niyyət edə bilərlər. Hadisələri Quran əxlaqıyla qiymətləndirmədikləri üçün, müsəlmanları passivləşdirməyə çalışanların göstərdikləri mənfi rəftarları yanlış görməz, əksinə onlar kimi davranmağın daha məntiqli olduğunu düşünərlər. Halbuki istər passivləşmiş kəslərin, istərsə də onlardan təsirlənənlərin qərarları və bu istiqamətdəki

səyləri zənn etdikləri kimi dinə verilmiş bir zərər deyil, əksinə çox xeyirli bir haldır. Bu kəslərin varlığı və fəaliyyətləri, həm səmimi möminlərin daha çox şövqlənmələrinə, həm də gördükləri işlərdə daha əzmli və beləcə də daha müvəffəqiyyətli olmalarına vəsilə olar. Quranda bildirildiyi kimi, doğru yolla gedənlərə, doğru yoldan azanların zərər verməsi qeyri-mümkündür:

**Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, haqq yoldan azmışlar sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allaha olacaq və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir. (Maidə surəsi, 105)**

Şübhəsiz ki, bu kəslərin ən böyük səhvlərindən biri, içlərində olduqları vəziyyətin fərq edilmədiyini zənn etmələridir. Quranda xarakterləri və rəftarları təfərrüatlı olaraq təsvir edilmiş bu tərz insanları, möminlər asanlıqla müəyyənləşdirə bilər və bunlara qarşı lazımlı bütün tədbirləri ən ağıllı şəkildə görərlər. Məsələn, heç vaxt təcili olaraq edilməli olan bir işi bu kəslərə əmanət etməzlər. Allahın **"Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir..." (Nisa surəsi, 58)** ayəsinə görə əmanəti sahibinə verər, onları şüurlu olaraq arxa planda tutarlar. Ancaq bu kəslər içində olduqları ağılsızlıq üzündən bu cür vəziyyətlərdə sevinər və öz aləmlərində bunu öz bicliklərinin bir nəticəsi olaraq qiymətləndirərlər. Onlara görə əhəmiyyətli olan Allahın rizasını qazanmaq olmadığı üçün, nə qədər az iş görsələr o qədər xeyir qazandıqlarını zənn edərlər, halbuki çox böyük ziyandadırlar. Həmçinin bütün etdikləriylə, müsəlmanları passivləşdirməyin əksinə, onların diqqətlərini daha da açaraq insan xarakterlərini tanımaq mövzusundakı təcrübələrinə əhəmiyyətli bir töhfə verərlər. Möminlərin bu kəslərə öyüd-nəsihət verməyə davam etmələri, onları etdikləri pisliklərdən çəkindirmək işləri isə, bunun, Allahın özlərinə yüklədiyi bir məsuliyyət olmasından ötrüdür. Çünki Allah iman edənlərə yaxşılığı əmr etməyi və pis işləri qadağan etməyi əmr etmişdir.

### Zəif imanlılar üzərində şeytani təsirlərinin olması

Özlərini din əxlaqını lazım olduğu kimi yaşamaq mövzusunda passivləşdirmiş kəslərin məqsədlərindən biri də, zəif imanlı kəsləri öz təsirlərinə məruz qoyub, öz tərəflərinə çəkməkdir. Lakin şeytanın təsirində olan bu kəslər, yenə ancaq öz əxlaqlarına bənzər əxlaqa sahib olan kəslər üzərində neqativ bir təsir meydana gətirə bilərlər. Səmimi möminlərə heç bir zərər verə bilməzlər. Allah səmimi olaraq iman

edənləri şeytanın və şeytanın dostlarının təlqinlərindən qoruyar. Şeytanın səmimi möminlərin üzərində bir təsirinin olmayacağı Quranda Allahın bildirdiyi bir həqiqətdir:

**İblis dedi: "Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara pis işləri gözəl göstərib onların hamısını azdıracağam. Yalnız Sənin seçilmiş, ixlaslı qullarından başqa". (Hicr surəsi, 39-40)**

Digər tərəfdən münafiq xarakterli, qəlbində xəstəlik olan və ya zəif imanlı kəslər, passivlik təlqinlərinin təsiri altında qala bilərlər. Pasifist kəslərin etdikləri işləri yubandırmaları, mübarizə şövqlərinin olmaması, Allahı yad etməkdə göstərdikləri zəiflik, fədakarlıqdan çəkinmələri, olduqca səthi insanlar olmaları, mümkün olduğu qədər az iş görərək başlarını qatmaq işləri, tənbəllikləri, həmişə hər işdə asan olanı seçmələri, neqativ və ruhsuz baxışlarla ətrafı nəzərdən keçirmələri, dindar olmağın dərin şövqündən və sevincindən məhrum olmaları, daim yuxulu və baxımsız bir görünüş nümayiş etdirmələri zəif imanlı insanlara bir mesajdır. Bu rəftarlarıyla, onları da qeyri-ciddi olmağa sövq etmək, özlərinə oxşatmaq və mümkün olduğu qədər çox adamı passivləşdirmək istəyərlər. Bu kəslər, öz təsirləri altına sala biləcəkləri insanları rəftarlarından və üslublarından tanıyar, ilk növbədə bu tərz insanlara yönələrlər. Öz düşüncələrinə uyğun olduğuna inandıqları kəsləri seçər, bu kəslərə heç kimin fərq edə bilməyəcəyini zənn etdikləri gizli mesajlar verər, gizli bir dillə bu kəslərlə razılaşarlar.

Müsəlmanlara fayda təmin edəcək bir işi görmək əvəzinə, ixtiyari bir işlə başlarını qatmaq qəlbində xəstəlik olan bir adamın digərlərinə "bu qədər səy göstərməyinizin heç bir mənası yoxdur, baxın mən necə də kef çəkirəm, siz də mənim kimi edə bilərsiniz" mesajıdır. Fədakarlıq ediləcək bir məqamda eqoistlik etmək, məsələn hər şeyin ən yaxşısını özünə ayırmaq və müsəlman qardaşlarını düşünməmək, "başqalarını deyil, əvvəlcə özünüzü düşünün" deməkdir. Müsəlmanlara qarşı təslimiyyətli və hörmətli bir rəftar əvəzinə, iynələyici və hörmətsiz bir rəftardan istifadə etmək "qarşınızdakı insanı ancaq belə əzər və özünüzü üstün görə bilərsiniz" təlqini verməkdir. Halbuki, onların məntiqlərinin tam əksinə, insan fədakarlıq etmədikdə deyil, fədakarlıq etdikdə, xəsislik etdikdə deyil, comərd olduqda, qürurlu deyil təvazökar olduqda, öyüd-nəsihət almaqdan qaçdıqda deyil, hər nəsihətə xeyir gözüylə baxdıqda həqiqi hüzuru və rahatlığı tapar. Dində zəiflik göstərən insanların müdafiə etdikləri həyat tərzi isə, həqiqi mömin əxlaqı ilə tamamilə ziddir.

Onsuz da passivliyi yaymaq istəyən kəslərin də məqsədi səbrli olmağa, təvazökar olmağa, təslimiyyətə, çalışqanlığa, fədakarlığa əsaslanan gözəl əxlaqın deyil, eqoizmə, tənbəlliyə, qürura, pisliyə əsaslanan pis əxlaqın yayılmasıdır. Zəif imanlı bəzi kəslər də

bu rəftarlara və təlqinlərə aldanaraq, qürurlu davrandıqları təqdirdə şərəfli olacaqlarını, fədakarlıq etmədikdə ağıllı davranmış olacaqlarını zənn edərlər. Halbuki həqiqətən ağıllı və zəkalı olan bir insan, Allahı lazımınca qiymətləndirə bilən, Rəbbimizin bizə əmr etdiyi əxlaqı yaşaya bilən insandır. Həqiqətən şərəfli olan kimsə isə, Allaha və Rəsuluna iman və itaət edən kimsədir. İnsana axtardığı hüzuru, şanı, şərəfi yalnız Allah verə bilər. Allahın əmr etdiyi əxlaqdan qaçaraq bunları qazana biləcəyini zənn edənlər isə çox böyük bir ziyan içərisindədirlər. Rəbbimiz insanların ancaq müsəlman olmaqla, haqq dini yaşamaqla şərəfli bir həyat yaşayacaqlarını, öz arzu və istəklərinə tabe olduqda isə ziyana uğrayacaqlarını belə xəbər vermişdir:

**Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrayardı. Doğrusu, Biz onlara Zikr gətirdik, onlar isə özlərinə verilən Zikrdən üz döndərirlər. (Muminun surəsi, 71)**

Digər tərəfdən bu insanlar birlik içində olduqlarında gizli bir dil istifadə edərək və ya öz başlarına qalanda açıq şəkildə müsəlmanların, peyğəmbərlərin və İslamın əleyhinə ola biləcək söhbətlər etməkdən çəkinməzlər. Bu çıxışlarda davamlı möminləri tənqid, özlərincə haqsızlığa uğradıqlarını düşündükləri mövzuları dilə gətirməyə diqqət göstərərlər. Səmimi bir mömindən və etdiyi işdən lağ bir üslubla bəhs edib, bir tərəfdən onun yaxşı bir insan olduğunu dilə gətirir kimi edərkən bir tərəfdən də işlərini özlərinə görə kiçik görər, rəftarlarını qınayarlar. Beləcə müsbət danışırmış kimi görünərkən qarşı tərəfə hiyləgər bir taktikayla mənfi təlqin edərlər. Quranda münafiqlərin, möminlərin verdikləri sədəqələri və Allah yolundakı səylərini lağ mövzusu etmələriylə əlaqədar bildirilən ayə, bu rəftarın bir nümunəsidir. Allah həm də münafiqlərin bu çirkin əxlaqını və əsl lağ mövzusu olanın özləri olduğunu belə bildirmişdir:

**Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir. (Tövbə surəsi, 79)**

Tarix boyu yaşamış mömin birliklərinin içində rast gəlinən bu xarakterdəki insanların əsla aydın bir şəkildə dilə gətirmədikləri, amma gizli danışıqları vaxt təlqin etdikləri başqa bir əhəmiyyətli mövzu da elçilərlə əlaqədardır. Bu kəslər peyğəmbərlərin yanında onların izah etdikləri həqiqətləri təsdiq edirmiş kimi davranarlar. Amma öz tərəfdarları ilə təşkil etdikləri gizli yığıncaqlarda əleyhinə danışıqlar aparарlar. Eyni

əxlaqdakı kəslər Peyğəmbərimizin dövründə də yaşamış, Onun əleyhinə gizli yığıncaqlar təşkil etmiş, bu yığıncaqlarda möminlərin və hz. Məhəmməd (s.ə.v)-in əleyhinə planlar qurmuşlar. Ancaq Allahın izni ilə bu planları həmişə boşa çıxmış və Rəbbimizin bir qanunu olaraq da həmişə boşa çıxacaq. Allah bu həqiqəti ayədə belə bildirir:

**Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır. Amma Allahın izni olmadıqca o, onlara heç bir zərər yetirə bilməz. Qoy möminlər Allaha təvəkkül etsinlər. (Mücadilə surəsi, 10)**

Peyğəmbərimiz (s.ə.v)-in dövründə yaşayan zəif imanlı şəxslərin və münafiqlərin, hz. Məhəmməd (s.ə.v)-in əmr və tövsiyələrini tətbiq etməməkdə israr etdikləri, bu tövsiyələr haqqında hörmətsiz şərhlər etdikləri məlumdur. Özlərinə bəlkə də dəfələrlə təsvir edilən bir mövzunu sanki heç eşitməmiş kimi davranmaları, sonra özlərinə xatırladıldıqda bunu heç bilmədiklərini demələri, əgər bilsələr ona görə davranacaqları yalanını ortaya atmaları və bu mövzuda çəkinmədən and içmələri bu xarakterdəki insanların məlum olan xüsusiyyətlərindəndir. Allah bir ayəsində bu xarakterdəki bəhsi keçən insanlar haqqında inananları belə xəbərdar etmişdir:

**Onlar andlarını özlərinə sipər edib insanları Allah yolundan döndərdilər. Onları alçaldıcı bir əzab gözləyir. (Mücadilə surəsi, 16)**

Rəbbimiz başqa bir ayəsində də ikiüzlü insanlarla əlaqədar belə buyurmuşdur:

**Ey Elçi! Qəlbləri iman gətirmədiyi halda ağızları ilə: "İman gətirdik!" - deyən kimsələrdən küfrə can atanlar qoy səni kədərləndirməsin. Həm yəhudilərdən yalana həvəslə qulaq asanlar, həm də sənin yanına gəlməyən başqa bir camaata həvəslə qulaq asanlar vardır. Onlar haqqı dərk etdikdən sonra kəlmələrin yerlərini dəyişdirib deyirlər: "Əgər sizə bu dəyişdirilən hökm verilsə, onu götürün. Yox əgər o verilməsə, çəkinin!" Allah kimi fitnəyə salmaq istərsə, sən ondan ötrü heç bir şeylə Allaha mane ola bilməzsən. Onlar o kəslərdir ki, Allah onların qəlbini təmizləmək istəməmişdir. Onlar dünyada rüsvay, axirətdə isə böyük bir əzaba düçar olacaqlar. (Maidə surəsi, 41)**

Qarışıq və müxtəlif mənalar verə biləcək rəftarlardan istifadə etmək, soruşduqda isə "yaxşılıqdan başqa bir şey istəmədiyini" iddia etmək, insanları passivləşdirən kəslərin tez-tez müraciət etdikləri bir saxtakarlıqdır. Öz aləmlərində saxtakarlıqlarını bu üslublarının altında gizlədər, anormallıqlarının hiss edilməyəcəyini, hiss edilsə belə vəziyyəti asanlıqla şərh edə biləcəklərini zənn edərlər. Elçinin verdiyi qərarlara qarşı narazılıqlarının, itaətsizliklərinin və təslimiyətsizliklərinin hiss edilməsinə baxmayaraq, mümkün olduğu qədər əxlaqsızlıqları ilə əlaqədar aydın bir dəlil verməməyə səy göstərərlər. Beləcə bir tərəfdən yaxşı niyyətdə olduqlarını iddia edərək müsəlmanları passivləşdirməyi, bir tərəfdən də zəif imanlı insanlara ortaya atdıqları fitnə dolu sözlərlə təsir edib öz tərəfdarlarından etməyi qarşılarına məqsəd qoyarlar. Ancaq onların bu rəftarlarının əsla fayda verməyəcəyini və boşa çıxacağını Allah bir ayəsində belə bildirir:

**Sözsüz ki, kafir olanlar, insanları Allah yolundan sapdıranlar və hidayət yolunu tanıdıqdan sonra Peyğəmbərə qarşı çıxanlar Allaha heç bir zərər vura bilməzlər. Allah onların bütün əməllərini puça çıxaracaqdır. (Məhəmməd surəsi, 32)**

## Müsəlmanların arasında cahiliyyə həyatının yaşanmasını istəmələri

Müsəlmanların arasında din əxlaqından uzaq bir həyat yaşamağa çalışan kəslər ümumiyyətlə haqq olmayan, azğın bir şəkildə şərh edilmiş, yanlış bir din anlayışı ilə ortaya çıxarlar. Bu yanlış anlayışda, Quran əxlaqı insan həyatında mümkün olduğu qədər az yer tutur, yalnız formal xarakterli ibadətlər iştirak edir. Halbuki, **"de: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!" (Ənam surəsi, 162)** ayəsiylə bildirildiyi kimi müsəlmanın hər dəqiqəsi, həyatının hər anı Allahın əmr etdiyi şəkildədir. Digər bir sözlə, din əxlaqı iman edən bir kimsənin bütün həyatını əhatə edir.

Pasifist kəslər isə, formal xarakterli ibadətlərə qismən də olsa əhəmiyyət verdikləri halda, dinin əsasını təşkil edən əxlaqi əsasları demək olar tamamilə yox sayarlar. Bu kəslər üçün meyar Allah rizası və Quran əxlaqı deyil. Ümumiyyətlə hadisələri, öz cahil məntiqlərinə və "məncə" deyə başlayan cümlələrlə batil inanclarına əsasən qiymətləndirərlər. Heç cür imtina edə bilmədikləri cahiliyyə həyatının meyarlarına əsasən bir qiymətləndirmə apararlar. Bu məntiqə sahib olan kəslərin dünyagörüşü ayədə belə bildirilmişdir:

**Onlar cahiliyyə dövrünün hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər? (Maidə surəsi, 50)**

Hadisələri cahiliyyə anlayışıyla qiymətləndirmələri, bu kəslərdə ciddi məntiq pozğunluqlarına səbəb olar. Möminlər dünya həyatının fani olduğunu, əsl yurdun isə axirət olduğunu bilirlər. Dünyadakı bütün imkanlarını ən yaxşı fəaliyyətlər görmək üçün qiymətləndirərlər. Məqsədləri Allahın rizası, rəhməti və cənnətidir. Buna görə də dünya həyatına dair mövzulara ancaq lazım olduğu qədər əhəmiyyət verər, əsas etibariylə axirətlərini düşünərlər. Pasifizmi müdafiə edən kəslər isə dünyada keçirdikləri müddətin əsas olduğunu zənn edər, dünya həyatıyla əlaqədar hər mövzuya ehtiraslı bir bağlılıq göstərərlər.

Cahiliyyə əxlaqını öz içlərində yaşadıb, möminlərin arasında yaşatmaq istəyən bu kəslər xüsusilə də özlərini birbaşa maraqlandıran mövzularda çox həssas olarlar. Məsələn, bir xəstəliyə tutulduqda təvəkkül etməz və qorxuya düşərlər. Nəfslərinə çox əhəmiyyət verdikləri üçün özlərinə bir zərər gəlməsi ehtimalı belə onların həddindən artıq reaksiyalar vermələrinə səbəb olar. Bu kəslər həm dünya həyatına çox əhəmiyyət verdikləri, həm də taleyin varlığını nəzərə almadıqları üçün xəstəlik onlarda sanki bir şok təsiri edər. Həmişə vəsvəsə içində olduqlarından ötrü onlarla həkimə getsələr belə sakitləşməzlər. İstifadə etdikləri dərmanların, seçdikləri həkimlərin özlərini yaxşılaşdıracağını zənn edib, yalnız bunlardan mədət umaraq yaxşılaşmağa çalışarlar. Əlbəttə ki, xəstə bir insan həkimə müraciət etməli, bu mövzudakı ən yaxşı və təcrübəli kəslərdən kömək almalı, özünə təklif edilən müalicəni tətbiq etməlidir. Ancaq bu əsnada, bütün bunların Allahın yaratdığı bir səbəb olduğunun, Allah diləmədiyi müddətcə ən yaxşı həkim tərəfindən müayinə olunsa da, ən təsirli dərmanlardan istifadə etsə də şəfa tapa bilməyəcəyini dərk etməlidir. Dünyadakı heç bir dərman, heç bir texnologiya, və ya heç bir həkim Allah diləmədiyi müddətcə xəstəliklərin yaxşılaşması üçün bir vəsilə ola bilməz. Necə ki, möminlər xəstəliyi yaradanın da, şəfa verənin də Allah olduğunu çox yaxşı bildiklərindən ötrü təvəkküllü və təslimiyyətli bir rəftar içərisində olarlar.

Müsəlmanları passivləşdirməyə çalışan kəslərin təvəkkülsüzlükləri və təlaşları qəlbində xəstəlik olan kəslərə də daxilən təsir edər. Yaşadıqları narahat ruh halı, ətraflarındakı bu insanların da ağılsız şərhlər etmələrinə, bənzər bir hadisəylə qarşılaşdıqlarında eyni təvəkkülsüzlüyü yaşamalarına səbəb olar. Onsuz da pasifizmi müdafiə edən kəslərin məqsədləri də təvəkkülsüzlükləriylə, müsəlmanlar arasında çaxnaşmaya səbəb ola bilmək, kifayət qədər məlumat sahibi olmayan və ya zəif imanlı olan kəsləri tələskənliyə sövq edə bilməkdir.

Din əxlaqını yaşamaqda passiv davranan kəslərin bir cəhətləri də, cahiliyyə həyatına qarşı keçirdikləri dərin heyranlıq hissidir. Cahiliyyə cəmiyyəti içərisində vəzifəyə, məqama sahib olan və cahiliyyə meyarlarına əsasən etibar olunan kəslərə, onlar da çox əhəmiyyət verər, onları gözlərində böyüdərlər. Hətta bu kəslərə bənzəmək üçün səy də göstərərlər. O kəslər kimi geyinərək, o kəslərin həyat tərzinə bənzər bir həyat tərzinə yiyələnərək, oxuduqları qəzetləri oxuyub, seyr etdikləri televiziya verilişlərini seyr edib, istifadə etdikləri rəftardan istifadə edərək bir mənada onları təqlid edərlər. Əlbəttə ki, bir insanın, digər insanların gözəl xüsusiyyətlərini nümunə götürməsində bir qorxu yoxdur. Ancaq bəhsi keçən kəslərin əsl olaraq üstünlük verdikləri və təqlid etdikləri bəzi gözəl xüsusiyyətlər deyil, cahiliyyənin zehniyyətidir. Düşüncə tərzləri, cahiliyyə məntiqləriylə formalaşmışdır. Nəyin vacib olduğunu, harada necə davranılmalı olduğunu, hansı rəftarların doğru, hansılarının səhv olduğunu Qurana görə deyil, cahiliyyənin qaydalarına görə müəyyənləşdirərlər. Bu ədabazlıq üzündən, saleh bir müsəlman olmağa cəhd etməz və cahiliyyə tərəfindən dəyər verilən xüsusiyyətlərə yiyələnməyə çalışarlar.

Hər hansı bir mövzuda qiymətləndirmə apararkən, Allahın varlığının fərqində olan bir insan kimi deyil, bu, həqiqətdən, tamamilə qafil biri kimi şərhlər edərlər. Həmçinin öz aləmlərində bir üstünlük olduğuna inandıqları müvəqqəti dəyərlərlə, möminlərin arasında da etimad qazanacaqlarını zənn edər və bunlarla təkəbbürlənərlər. Ancaq səmimi möminlər üçün insanların dünyəvi xüsusiyyətlərinin heç bir mənası yoxdur. Ancaq bir adam elmindən, mədəniyyətindən, imkanlarından İslamın xeyri naminə, müsəlmanların faydası üçün istifadə edirsə, şübhəsiz ki, bu gözəl bir davranış olacaq və axirətdə də bunun qarşılığını Allahın izni ilə ən gözəl şəkildə alacaq. Lakin Allahın rizasını güdməyib, bəzi müvəqqəti xüsusiyyətlərdən ötrü təkəbbürlənən kəslərə bu xüsusiyyətləri, dünyada da, axirətdə də heç bir fayda verməyəcək. Ayədə də bildirildiyi kimi, mömin kimsə üçün **"...ən yaxşı azuqə isə təqvadır..." (Bəqərə surəsi, 197).** Başqa bir ayədə isə, meyarın yalnız təqva olduğu və insanların dünyada qazandıqları maddi xüsusiyyətlərin Allah qatında bir dəyərinin olmayacağı belə bildirilmişdir:

**...Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Möminlər Quran əxlaqına tabe olduqları üçün qarşılarındakı adamın Allaha olan bağlılığını, Allah qorxusunu hiss etdikləri səviyyədə o adama hörmət və sevgi bəsləyər, cahiliyyə dəyərlərini əsla əsas götürməzlər. Passivlik təlqini edənlərdən isə, ancaq hadisələri və insanları Qurana görə qiymətləndirməyənlər təsirlənə bilərlər. Bu insanlar

onların xarakterini nümunə götürər və onlara bənzəməyə çalışırlar. Bu kəslərin ortaq xüsusiyyətləri dünyada səmimiyyətin, Allah sevgisinin, Allah qorxusunun əsas götürüldüyü bir həyatın yaşana biləcəyinə inanmamalarıdır. Şübhəsiz ki, bu yanılmaları, bundan imtina etmədikləri müddətcə, onları ağrılı-acılı bir əzaba aparacaq.

# MÜSƏLMANLARI NECƏ PASSİVLƏŞDİRMƏYƏ ÇALIŞIRLAR?

Müsəlmanları passivləşdirməyə çalışan kəslərin müraciət etdikləri müəyyən üsullar var. Öz ağıllarına görə bu üsulları tətbiq etdikləri təqdirdə, müsəlmanların əzm və şövqlərini yox edə biləcəklərini, onları zəiflədə biləcəklərini zənn edərlər. Bəzən hiyləgərcəsinə, bəzən də açıq şəkildə bu üsullara müraciət edə bilərlər. Allah **"...kafirlər bacarsalar, sizi dininizdən döndərənə qədər sizinlə vuruşmaqdan əl çəkməyəcəklər..." (Bəqərə surəsi, 217)** ayəsiylə bu əxlaqdakı kəslərin, möminləri dinlərindən döndərə bilmək üçün həmişə səy göstərəcəklərini bildirmişdir.

Sonrakı səhifələrdə bu insanların tətbiq etdikləri taktikaların bəzilərinə toxunacağıq. Ancaq bu üsulları araşdırarkən unudulmamalı olan əhəmiyyətli bir xüsus vardır. Bu kəslər, gizli metodlardan istifadə etsələr də, açıq şəkildə səy göstərsələr də, Allahın izni ilə müsəlmanları passivləşdirməyi bacara bilməyəcəklər. Hər şeyi yaradanın Allah olduğu həqiqətini tam mənasıyla heç cür qavraya bilməyən bu insanlar, Allah diləmədikcə özlərinin heç bir şeyə qadir olmayacaqlarını da dərk edə bilməzlər. Bununla yanaşı, Allahın iman edənləri qoruduğundan, onları mütləq müvəffəqiyyətli edəcəyindən də qafildirlər. Üstəlik həqiqi üzlərini heç kimin hiss etmədiyini və bu cəhətlərinin ortaya çıxmayacağını zənn etməklə də böyük bir səhvə düşmüşlər. Allah möminlərə, qəlblərində xəstəlik olanların bu cəhətlərini mütləq ortaya çıxaracağını bildirmişdir:

**Bu ona görədir ki, onlar Allahın qəzəbinə səbəb olan şeyə uydular və Onun razı qaldığı şeyə nifrət etdilər. Buna görə də Allah onların əməllərini boşa çıxartdı. Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq? (Məhəmməd surəsi, 28-29)**

**Boş işlərlə başını qatmağa çalışaraq müsəlmanların diqqətlərini dağıtmağı qarşılarına məqsəd qoymaları**

Bir mömin üçün vaxt olduqca qiymətlidir və iman edən kimsə keçirdiyi hər anı Allah rizası üçün ən gözəl şəkildə dəyərləndirməyə çalışır. İman edənlərin həyatları boyunca yerinə yetirməli olan bir çox məsuliyyət var: Mömin, imanını gücləndirmək və dərinləşdirmək, əxlaqını gözəlləşdirmək üçün səy göstərməli, insanlara həqiqi din əxlaqını izah etmək üçün səy göstərməli, dindən kənar ideologiyalarla fikri cəhətdən mübarizə aparmalı, ehtiyac içində olanlara yardım etməli, həmişə saleh əməllər

etməlidir. Digər bir sözlə, möminlər özlərini bu məsuliyyətlərdən yayındıra biləcək hər cür boş işdən çəkinməlidirlər. Rəbbimiz bir ayəsində iman edənlərin bu xüsusiyyətini **"o kəslər ki, sözbazlıqdan qaçırlar" (Muminun surəsi, 3)** deyə bildirmişdir. Başqa bir ayədə isə iman edənlərin boş şeylərlə qarşılaşdıqları vaxt, bunlardan üz çevirdikləri belə buyurulmuşdur:

**Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!" – deyirlər. (Qəsas surəsi, 55)**

Müsəlmanları passivləşdirməyə çalışan kəslər isə, boş və faydasız işləri gündəmdə saxlayaraq, möminlərin başlarını qatmaq istəyərlər. Beləcə, iman edənlərin diqqətlərini dağıdacaqlarını, onları işlərindən yayındıra biləcəklərini düşünərlər. İnsanları Allahdan uzaqlaşdıran, axirətdə hesab verəcəklərini unutduran və qəflətə salan mövzuları seçərək və bu mövzuları ön plana çıxardaraq möminlərin başlarını da bunlarla qata biləcəklərini zənn edərlər. Bu cür insanların bəhdi keçən xüsusiyyətləri bir ayədə belə bildirilmişdir:

**İnsanlar arasında elələri də var ki, heç bir biliyi olmadan başqalarını Allah yolundan sapdırmaq və Allahın ayələrini lağa qoymaq üçün boş-boş sözləri satın alırlar. Məhz onları alçaldıcı bir əzab gözləyir. (Loğman surəsi, 6)**

Müsəlmanları fayda təmin edəcək mövzular əvəzinə heç bir faydası olmayan mövzulara yönəldərlər. Ətraflarındakı müsəlmanların imanlarının güclənməsinə vəsilə olacaq bir iman həqiqəti əvəzinə, dünya həyatının müvəqqəti dəyərlərini ön plana çıxaran mövzuları nəql edərlər. Məsələn, yeni dəbdə olan geyim tərzinin nə olduğu, yeni istehsal olunan avtomobil modelləri, hansı restoranın son vaxtlarda daha məşhur olduğu, hansı istirahət yerlərində daha çox əylənəcəkləri kimi mövzuları həmişə gündəmdə saxlayarlar. Bu mövzulara əhəmiyyət vermələrinin səbəblərindən biri, bəhsi keçən insanların həqiqi müsəlman əxlaqını qazanmaq əvəzinə cahiliyyə həyatına qibtə etmələridir. Əlbəttə ki, müsəlmanlar da bu mövzular haqqında söhbət edər və sosial həyatdakı inkişaflardan xəbərdar olarlar. Ancaq bütün bunların dünya həyatının keçici bir bəzəyi olduğunu da unutmazlar. Ən gözəl paltarı yaradanın, dəbdəbəli avtomobili hazırlayanın, ən gözəl istirahət yerlərini var edənin Allah olduğunu bilər və əgər Rəbbimiz bu nemətlərdən özlərinə təqdim etsə, bunun üçün Allaha şükür edər.

Gördükləri bütün gözəlliklərin Rəbbimizin bir təcəllisi olduğunu dərk edərək, yalnız Allaha yönələr və hər cür nemət üçün Allaha şükür edərlər.

Müsəlmanları passivləşdirmək istəyən kəslər isə, seçdikləri mövzularla və bu mövzuları izah edərkən istifadə etdikləri üslublarıyla hesablaşma gününü nəzərə almaz, dünya həyatı sanki heç bitməyəcəkmiş kimi davranarlar. Beləcə, müsəlmanların da özləriylə birlikdə dünya həyatına aldanacaqlarına inanarlar. Halbuki bu kəslərin, müsəlmanları passivləşdirmək üçün müraciət etdikləri bu üsulla müvəffəqiyyətli olmaları qeyri-mümkündür. Çünki Rəbbimizin Quranda bildirdiyi əhəmiyyətli mömin xüsusiyyətlərindən biri, yuxarıda da ifadə etdiyimiz kimi, boş işlərdən üz çevirməkdir. Səmimi olaraq iman edən bir kimsə, vicdanının ilhamıyla hansı işin boş və faydasız, hansı işin xeyirli və faydalı olduğunu dərhal qavrayar və lazım olan tədbiri görər. Allah Quranda, cənnətin xüsusiyyətlərini bildirərkən, möminlərin orada boş və mənasız söz eşitməyəcəklərini də xəbər vermişdir:

**Onlar orada nə mənasız sözlər, nə də iftira eşidəcəklər. (Nəbə surəsi, 35)**

**Onlar orada boş sözlər deyil, ancaq: "Salam!" eşidəcəklər. Orada səhər-axşam onların ruzisi olacaqdır. (Məryəm surəsi, 62)**

Dünya həyatında özlərini cənnət üçün hazırlayan bütün iman sahibləri də bu həqiqəti dərk edərək hərəkət edər və dünya həyatına aldanıb, boş şeylərlə məşğul olmazlar. Möminlərin dərk etdikləri başqa bir həqiqət də, Rəbbimizin, insanları Allah yolundan döndərmək istəyən kəslərin bütün işlərini boşa çıxaracağıdır. Ayədə belə buyurulmuşdur:

**Kafirlərin və insanları Allahın yolundan sapdıranların əməllərini Allah puça çıxarmışdır. (Məhəmməd surəsi, 1)**

### Tədbir görmələrinə mane olaraq müsəlmanları müdafiəsiz qoymağa çalışmaları

İman edənlərlə inkarçılar arasındakı fikri mübarizə tarixin hər dövründə davam etmişdir. Quranda peyğəmbərlərin və onlara beyət edən möminlərin, din əxlaqını yaymaq üçün göstərdikləri səyin qarşılığında inkar edənlərin böhtanlarına məruz

qaldıqları, günahsız yerə həbs olunduqları, yurdlarından qovulduqları və hətta öldürüldükləri xəbər verilir. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in və səhabələrinin həyatları da, bu böyük mübarizənin ən əhəmiyyətli nümunələrindən biridir. Məkkəli müşrikləri bir və tək olan Allaha iman etməyə dəvət edən Peyğəmbərimiz (s.ə.v), müşriklər tərəfindən ölümlə təhdid edilmiş, müşriklərin ağlasığmaz böhtanlarıyla üzləşmiş və bütün bu təzyiqlərin nəticəsində yanındakı möminlərlə birlikdə Mədinəyə hicrət etmişdir.

Peyğəmbərimiz (s.ə.v)-in dövründə yaşayan və möminləri passivləşdirmək istəyən kəslər isə belə çətin şərtlərdə də rəftarlarıyla və üslublarıyla, möminlərin lazımi tədbirlər görmələrinə mane olacaq bir yol tutmuşlar. Peyğəmbərimiz (s.ə.v)-ə və səhabələrə dəstək olmaq üçün heç bir hazırlıq görmədikləri kimi, möminləri üz-üzə gəldikləri vəziyyətin ölçüləri haqqında da səhv məlumatlandırmağa çalışmışlar. Rəbbimizin, **"Əgər onlar döyüşə çıxmaq istəsəydilər, mütləq ona hazırlıq görərdilər..." (Tövbə surəsi, 46)** ayəsiylə buyurduğu kimi əsl məqsədləri mübarizədən qaçmaq olan bu insanlar, heç bir hazırlıq görməyərək ətraflarındakı insanlara "hazırlıq görməyi tələb edəcək əhəmiyyətli bir vəziyyət olmadığı" mesajını vermək istəmişlər. Beləcə həm möminlərin mübarizə şövqünü yox etməyi, həm də hər hansı bir vəziyyətdə möminləri müdafiəsiz buraxmağı qarşılarına məqsəd qoymuşdurlar.

Tədbirli davranmaq və hər ehtimala qarşı hazırlıqlı olmaq isə mömin xüsusiyyətlərindən biridir. İman edənlər, həm öz sosial həyatlarında, həm də bütün müsəlmanları maraqlandıran mövzularda hər cür ehtimalı düşünərək hərəkət edər, görülməli olan hər cür tədbiri geniş şəkildə düşünər və görərlər. Müsəlmanları passivləşdirməyə çalışan insanlar da, səhv məlumatlandırmalarla ya da öz səhv məntiqlərini möminlərə qəbul etdirməyə çalışaraq, iman edənləri tədbir görməkdən çəkindirmək istəyirlər. Bunun üçün tətbiq etdikləri üsullardan biri də, həqiqi din əxlaqını yaşamayan bəzi insanları da möminlərə dost göstərməyə çalışmaq, beləcə möminlərin bu tərz kəslərin səbəb ola biləcəyi hallara qarşı tədbir görmələrinə mane olmaqdır.

Pasifist insanların azğın inanclarına görə, bir adamın "inandım" deməsi mömin olması üçün kifayətdir. Halbuki bu çox səhv bir fikirdir. Həqiqətən də, iman etdiyini deyən bir adamın bu razılığı olduqca əhəmiyyətli və qiymətlidir. Ancaq bunun rəftar və davranışlarla da dəstəklənməsi, həmin adamın sözünə inanmaq və etibar etmək üçün də vacibdir. İman etdiyini deyən bədəvilər üçün Rəbbimizin Quranda bildirdiyi **"...de: "Siz qəlbən iman gətirmədiniz! Ancaq: "Biz müsəlman olduq!" - deyin. İman sizin qəlblərinizə hələ daxil olmamışdır " (Hucurat surəsi, 14)** ayəsiylə "iman etdik" deməklə, imanın qəlbə daxil olmamasına işarə edilir. Bununla yanaşı Allah, iman edənləri mütləq

sınayacağını, “iman etdik” deməklə insanlardan əl çəkilməyəcəyini buyurur: **“İnsanlar elə güman edirlər ki, təkcə: “İman gətirdik!” – demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? (Ənkəbut surəsi, 2)**

Səmimi olaraq iman edən bir kimsə, halal və haramlara riayət etmə mövzusundakı həssaslığı, Quranda bildirilən bütün hökmləri əskiksiz şəkildə yerinə yetirməsi, dözümlülüyü, səbri, təvəkkülü, sədaqəti, Allaha təslimiyyəti, taleyə iman etməsi, şükrü, təvazökarlığıyla imanının və dindarlığının dərinliyini ortaya qoyar. Pasifizmi hakim etməyə çalışan kəslərin hadisələri qiymətləndirməsində isə tam fərqli meyarlar vardır. Bu meyarların başında şəxsi mənfəətləri durur. Mənfəət təmin edəcəyini düşündükləri kəsləri, yuxarıda saydığımız mömin xüsusiyyətlərinin heç birini göstərməməsi belə, mömin olaraq qəbul edə bilərlər. Müsəlmanlara da bunu qəbul etdirməyə çalışırlar. Özlərinə görə yaxşılıq və pislik meyarları var. Bu batil meyarlara görə, özlərinə gələcəkdə fayda təmin edəcəyini ümid etdikləri bir insanı – əxlaqına heç bir fikir vermədən- “yaxşı insan” olaraq adlandırıla bilər. Dünyəvi mənfəətlərinə mane olacağına inandıqları bir insanı isə, asanlıqla “pis” insan olaraq adlandıra bilərlər. Buna görə də Allahın qoyduğu hüdudları aşan kəslərlə dostluq etməkdə, onları müdafiə etməkdə bir problem görməzlər.

Məsələn, müsəlman olduğunu deyən ancaq qumar oynayan bir insanın, ya da iman etdiyini deyən, lakin 5 vaxt namaz mövzusunda həssaslıq göstərməyən bir insanın səhv yolda olduğunu qəbul etməz. Namaz qılan ancaq nahaq yolla xeyir qazanmağa davam edən, oruc tutan lakin ehtiyac içində olanlara kömək etməyib mal hərisi olan, yalan danışan bir kimsənin əslində səhv bir mövqedə olduğuna inanmaz, tam əksinə bu insanların xətalarını müdafiə etməyə çalışarlar. Bir insan cahillikdən, məlumat çatışmazlığı üzündən ya da vicdanından tam istifadə etmədiyi üçün səhvən Quran əxlaqını tam tətbiq etməyə bilər, ancaq özünə öyüd-nəsihət verildikdən, doğru olan izah edildikdən sonra bu rəftarından tezliklə imtina etməlidir. Səmimi bir insan doğrunu görən kimi, ona tabe olar və səhv mövqeyini tezliklə tərk edər. Burada səmimi olduqları halda bəzi səhvliklər edən kəslər nəzərdə tutulmur. Pasifizmi yaymağa çalışan insanların israrla müdafiə etməyə davam etdikləri kəslər, bildikləri halda doğruya tabe olmayan, Allahın hökmlərini çox yaxşı başa düşdükləri halda rəftarlarında bir dəyişiklik etməyən, buna baxmayaraq “müsəlman olduğunu” iddia edən kəslər nəzərdə tutulur.

Əslində bu cür insanlara cahil cəmiyyəti içində tez-tez rast gəlinə bilər. Bunlar dinin hökmlərini tam mənasıyla tətbiq etməmələrinə baxmayaraq dini açıq şəkildə də rədd etməzlər. Bəzən namaz qılar, bəzən də oruc tutar, özlərindən soruşduqda isə “əsla pislik etmək istəmədiklərini” deyər, ancaq Allahın bir çox əmrini yerinə yetirməməkdə bir problem görməzlər. Hərdən bir, haram olan bir hərəkəti işləməkdən də çəkinməz,

yaxşı niyyətli olduqlarını iddia edərək Allahın özlərini bağışlayacağını deyərlər. Bu kəslərə görə bəzən namazları qılmamağın, çox vaxt sübh namazına durmamağın, hərdən qumar oynamağın, lazım gəldikdə sələm yeməyin, sağlamlıq kimi qanuni bir səbəbi olmasa da bəzi günlər oruc tutmamağın heç bir problemi yoxdur. Halbuki tamamilə səhv bir məntiqin məhsulu olan bu şərhlər, Quran əxlaqına ziddir.

Rəsulullah (s.ə.v) də ibadətləri əskiksiz yerinə yetirməyin əhəmiyyətli olduğunu xəbər vermişdir. Məsələn, namaz qılmamağın ya da namazı vaxtında qılmamağın nə qədər təhlükəli olduğunu mübarək hədisi şəriflərində belə bildirmişdir:

İmam Şafi ilə Beyhəqiyə görə Peyğəmbərimiz (s.ə.v): "Hər hansı bir vaxt namazı qılmadan vaxt keçirənlər ailəsi dağılmış, mal-dövlətini itirmiş kimidirlər"-deyə buyurur. (İmam Gazali - Mükasefetü´l Kulub - Kalplerin Keşfi)

Pasifist kəslər, davranış tərzlərinin doğru olduğundan çox əmindirlər. Böyüklərindən belə gördüklərini, bu etdiklərinin ənənələrinə uyğun olduğunu irəli sürürlər. Bu rəftarları Quranda belə xəbər verilmişdir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" - deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" - deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)**

Möminlər Allahın rizasını qazanmaq, Ona yaxınlaşmaq, Rəbbimizə olan itaətlərini və təslimiyyətlərini göstərmək üçün ibadətləri böyük bir fürsət kimi görər, huşu içində bu ibadətlərini yerinə yetirirlər. Pasifist insanların ən təhlükəli cəhətləri isə, ənənələrinə və batil anlayışlarına əsaslanaraq peyğəmbərlərin izah etdiyi haqq dinə tabe olmağı rədd etmələridir. Atalarından belə gördüklərini deyərək yaramaz əməlləri işləməyə davam edər və hətta bunu Allah onlara əmr etmişdir deyə yalan danışarlar. (Əraf surəsi, 28) Peyğəmbərlərin və elçilərin dəvət etdiyi yola tabe olmaz, israrla və düşüncəsizcə atalarının yolunun doğru olduğunu iddia edərlər. (Əraf surəsi, 70) vicdanları peyğəmbərlərin təbliğ etdiklərinin doğru və haqq olduğunu bildikləri halda, bunu "ulu babalarından eşitmədiklərini" (Qəsəs surəsi, 36) irəli sürərək əxlaqsızlıqlarına davam edərlər. Buna görə də müsəlman olduqlarını irəli sürdükləri halda, səmimi müsəlmanların qarşısında çıxış edər, Allahın Quranda əmr etdiyi əxlaqı özləri yaşamadıqları kimi digər insanların yaşamasına da mane olmağa çalışarlar. Bunun üçün də möminləri müxtəlif yollarla passivləşdirməklə məşğul olarlar. Bu kəsləri "müsəlmanlara qarşı olan müsəlmanlar" kimi adlandırmaq mümkündür.

Passivliyi müdafiə edən kəslər də səmimi möminlərə qarşı, guya müsəlman olduğunu deyən bu cür insanlarla əməkdaşlıq edərlər. Çünki eynilə bu kəslər kimi, passivlik tərəfdarları da açıq şəkildə dini rədd etdiklərini deyə bilməz, dini qismən tətbiq edərək özlərinə haqq qazandırmağa çalışarlar. Həmçinin belə bir xarakterin varlığı, öz əxlaqsızlıqlarını kamuflyaj edə bilmək üçün də əhəmiyyətli bir fürsətdir. Müsəlmanlara da bu azğın dünyagörüşünü təlqin etməyə çalışır və bu cəhətləriylə də müsəlmanları passivləşdirməyi qarşılarına məqsəd qoyarlar.

Daha əvvəl də ifadə etdiyimiz kimi, dindənkənar ideologiyalara qarşı həyata keçirilən fikri mübarizə möminlərin əhəmiyyətli məsuliyyətlərindən biridir. Passivliyin tərəfdarlarına görə isə, din əxlaqından uzaq bir kimsə belə "dost" qəbul edilə biləcəyi üçün belə bir mübarizə mühiti də normal olaraq aradan qalxır.

Halbuki, Rəbbimiz Quranda bizlərə müsəlman olduqlarını dedikləri halda, əslində iman etməyən insanların həqiqi üzünü xəbər vermişdir. Bunlar, müsəlmanlarla rastlaşdıqları vaxt: "iman etdiyini" deyən, öz şeytanlarıyla təklikdə qaldıqda isə, **"...Biz sizinləyik. Biz möminlərə ancaq istehza edirik! - deyirlər" (Bəqərə surəsi, 14)** deyən kəslərdir. Belə bir ikiüzlülük edən kəslərə möminlərin əsla etibar etməyəcəyi aydındır. Çünki bu kəslər, mənfəətləriylə zidd düşmədiyi müddətcə iman edənlərə dost görünərkən, ən kiçik bir qarşıdurmada arxa çevirəcək və hətta möminlərin əleyhinə tələlər qurmağa cəhd edəcəkdirlər. Bu, Peyğəmbərimiz (s.ə.v)-in dövründəki müşriklərin göstərdikləri əxlaqın bir bənzəridir. Məkkəli müşriklərin bir qismi də, Peyğəmbərimiz (s.ə.v)-lə müqavilə bağlamalarına baxmayaraq, hər fürsətdə əhdlərini pozmağa cəhd edir, möminlərə qarşı rəftarlarını açıq şəkildə ortaya qoymuşlar. Rəbbimiz ayəsində belə bildirmişdir:

**Necə ola bilər?! Əgər onlar sizə qalib gəlsələr, nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etməzlər. Onların qəlbində nifrət olduğu halda, dildə sizi razı salmağa çalışarlar. Onların çoxu fasiqlərdir. (Tövbə surəsi, 8)**

Sözləriylə möminləri razı salmağa çalışan ancaq qəlbən haqq dinə qarşı mübarizə aparan kəslərin həqiqi üzü "qəti əmr verildiyi zaman" ortaya çıxar. Allah, möminlərə "qəti əmr verildiyi zaman, Allaha sadiq qalmalarını" (Məhəmməd surəsi, 21) əmr etmişdir. Allahdan lazım olduğu kimi qorxmayan, etdiklərinin axirətdə hesabını verəcəyini dərk edə bilməyən kəslər belə vaxtlarda özlərini bəlli edərlər. Buna görə də səmimi olaraq iman edənlərin, bu kəsləri müəyyənləşdirmələri olduqca asandır. Nə qədər ki, dində passiv davrananlar, -özlərinə bir çox cəhətdən bənzəyən- bu kəslərin əsasında səmimi olduqlarını, dini tam bilmədikləri üçün tam mənasıyla tətbiq

etmədiklərini deyərək onları müdafiə etsələr də, möminlər vəziyyəti bilirlər. Çünki bunlar, bilmədiklərindən deyil, bildikləri halda, qəbul etmədiklərindən haqq dini yaşamırlar. Həyat tərzləriylə, əxlaqlarıyla ruh hallarını və formal xarakterli məntiqlərini göz qabağına gətirən bu insanlara qarşı, möminlər, əlbəttə ki, məsafə saxlayacaq, bunlara qarşı daxilən bir sevgi və hörmət bəsləməyəcəklər. Allahın qoyduğu hüdudları aşan, Quran əxlaqını lazım olduğu kimi yaşamayanlara sevgi bəsləyənlər, din əxlaqını yaşamaqda tərəfsiz davrananlar, müsəlmanları passivləşdirməyə çalışanlardır. Möminlərin isə Allaha və Rəsuluna düşmən olanlarla heç bir dostluq əlaqəsi saxlmadıqları ayədə belə bildirilir:

**Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır. (Mücadilə surəsi, 22)**

### İnkar edənlərdən istifadə etməklə iman edənləri ruhdan salmağı qarşılarına məqsəd qoymaları

Yuxarıda izah etdiyimiz kimi, din əxlaqını yaşamaqda bitərəf davranıb müsəlmanları da passivləşdirmək istəyənlər, Allaha iman etməyən və Quran əxlaqını yaşamayanlarla asanlıqla dostluq qura bilərlər. Ancaq ümumiyyətlə bu kəslərlə gizlində bir dostluq qurar və mümkün olduğu qədər bu dostluqlarını möminlərdən gizli tutmağa çalışarlar. Möminlərdən bunu hiss edənlər olduqda isə müxtəlif bəhanələr uydurараq, əslində onlarla həqiqi bir dostluqlarının olmadığını, yalnız bəzi texniki səbəblərdən ötrü görüşdüklərini iddia edərlər. Allah onların yalan danışdıqlarını belə xəbər verir:

**Məgər sən, Allahın qəzəbləndiyi adamlarla dostluq edənləri görmədinmi? Onlar nə sizdəndirlər, nə də onlardan. Onlar bilə-bilə yalandan and içirlər. (Mücadilə surəsi, 14)**

Burada qeyd etmək lazımdır ki, sosial həyatda mömin müxtəlif fikirləri olan kəslərlə əlaqə saxlaya bilər, bu olduqca təbiidir. Əlaqə saxladığı bütün insanlara qarşı

da nəzakətlidir. Ancaq qəlbən həqiqi sevgi və hörməti, əlbəttə ki, yalnız iman edənlərə yönəldər. Möminlərin tək dostu, vəlisi və yardımçısı Allah, Onun Elçisi və səmimi olaraq iman edən digər möminlərdir. Ayədə belə buyurulmuşdur:

**Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat verirlər. (Maidə surəsi, 55)**

Qəlblərində xəstəlik olanlar isə, Allah və Rəsuluna tərəf çağırıldıqda, **"münafiqlərin səndən nifrətlə üz çevirdiklərini görürsən" (Nisa surəsi 61)** Elçini və möminləri dost tutmaq əvəzinə, inkar edənlərə qarşı məhəbbət bəsləyərlər. Bu kəslərin inkar edənlərlə dostluq qurmalarının arxasında isə bir çox hiyləgər plan vardır. Əvvəlcə, ayələrdə də buyurulduğu kimi, bu insanlar əslində hansı tərəfdə olduqlarına qərar verə bilməmiş kəslərdir. Bir tərəfdən möminlərlə hərəkət edərkən, bir tərəfdən də daxilən inkar edənlərin həyat tərzini yaşamağı arzulayarlar. Qəti qərarlı olmadıqları və bir gün möminlərlə olan əlaqələrini tamamilə kəsmə ehtimalları olduğu üçün, digərləriylə də əlaqələrini tamamilə kəsməzlər. Həqiqi mənada iman edən bir insanın isə həyatı boyu möminləri dost tutacağı, onlardan uzaqda bir həyatı ağlından belə keçirməyəcəyi aydındır.

Necə ki, Allah onların bu qərarsızlığını **"Onlar imanla küfrün arasında tərəddüd edir, nə bunlara, nə də onlara..." (Nisa surəsi, 143)** ayəsində bildirir. Narahatlıqlarının başqa bir səbəbi də inkar edənlərlə gizlində əməkdaşlıq edərək möminlərin əleyhinə tələlər qurmalarıdır. Bu yolla möminlərə zərər verə biləcəklərini, onların fikri mübarizələrinə mane ola biləcəklərini zənn edərlər. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in dövründəki münafiqlərin, Allahın Rəsulundan ayrı bir məscid əldə etmələri və burada möminlər əleyhində inkar edənlərlə əməkdaşlıq etmələri bu vəziyyətin nümunələrindəndir. Ayədə belə bildirilir:

**Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər, əlbəttə: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" – deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar. (Tövbə surəsi, 107)**

Ayədə də bildirildiyi kimi, bu kəslərin ən diqqətə çarpan xüsusiyyətlərindən biri də bütün bunları edərkən "yaxşı niyyətli olduqlarını" iddia etmələridir. Halbuki məqsədləri müsəlmanlara fayda vermək deyil, tam əksinə inkar edənlərlə əməkdaşlıq

edərək müsəlmanlara mane ola bilməkdir. Həqiqətən yaxşılıq etmək istəyən bir insanın, Allahın və Peyğəmbərinin yoluna tabe olacağı aydındır. Möminlər Allahın və elçisinin vədinin haqq olduğunu, mütləq reallaşacağını bilir və yalnız Allahı, elçisini və möminləri sirdaş tuturlar. Bu insanlar isə bir tərəfdən möminlərin arasında bir həyat yaşayarkən, bir tərəfdən də inkar edənlərlə olan yaxın əlaqələrini gizlicə davam etdirərlər. Bu kəslər, insanlardan gizlətdiklərini Rəbbimizdən gizlədə bilməyəcəklərini isə əsla dərk edə bilməzlər. Allahın, şüuraltı düşüncələrini də, gizli planlarını da bütün təfərrüatı ilə birlikdə bildiyini başa düşə bilməzlər. Onlar gizli söhbətlər etdiklərini və özlərinə gizlində dostlar tutduqlarını zənn edərkən də, Allah onların hər anlarına şahid olur və mələklər də etdiklərini yazırlar. Ayələrdə belə buyurulur:

**Onlar öz günahlarını insanlardan gizlədir, Allahdan isə gizlətmirlər (Ondan çəkinmirlər). Halbuki onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir. (Nisa surəsi, 108)**

**Yoxsa onlar elə hesab edirlər ki, Biz onların sirlərini və gizli danışıqlarını eşitmirik? Xeyr! Yanlarında əməllərini yazan elçilərimiz vardır. (Zuxruf surəsi, 80)**

Halbuki unutmamaq lazımdır ki, möminlərə göstərməyib, inkar edənlərə yönəltdikləri sevgi və diqqət, bu kəslərin axirətdə böyük peşmançılıq çəkmələrinə səbəb ola bilər. Bunlar, adamı doğru yoldan sapdıra biləcək, insanı mütləq tək-tənha qoyacaq saxta əlaqələrdir. Dünyada olarkən bu həqiqəti görməkdən israrla uzaq duranlar, hesablaşma günündə peşmançılıqlarını açıq şəkildə ifadə edəcək, ancaq artıq o gün onlar üçün geriyə qayıdıb etdikləri əməllərini düzəltmək imkanı olmayacaq. Ayələrdə belə buyurulmuşdur:

**Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcəkdir: “Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı”. Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır. (Furqan surəsi, 27-29)**

**Süni problemlər və çaxnaşma mühitləri meydana gətirərək müsəlmanları məşğul etməyə çalışmaları**

Daha əvvəl müsəlmanları passivləşdirmək istəyən kəslərin, biganə rəftarlarıyla möminləri tədbir görməkdən və mübarizədən uzaq tutmağa çalışdıqlarını ifadə etmişdik. Bu insanlar bəzən yaşanılan risklərə qarşı tədbir görülməsinə mane olmağa çalışarkən, bəzən də ortada heç bir problem olmadığı halda, süni problemlər meydana gətirərək möminləri narahat etməyə çalışırlar.

Bəhsi keçən kəslərin ən diqqətə çarpan xüsusiyyətlərindən biri qorxaq və təvəkkülsüz olmalarıdır. Allahın gücünü lazım olduğu kimi təqdir edə bilməyən bu insanlar, alın yazısı həqiqətini də tam mənasıyla qavraya bilməzlər. Yaşanan hər anın, baş verən hər hadisənin Allahın müəyyənləşdirdiyi bir tale daxilində reallaşdığını başa düşə bilməzlər. Halbuki hər insan gündəlik həyatında ağla gəlməyən hadisələrlə qarşılaşa bilər. Özünə bir haqsızlıq edilə bilər, bir böhtana məruz qala bilər, zehni ya da fiziki bir hücuma məruz qala bilər... Allaha təvəkkül edən bir müsəlman, belə hallarda da taleyi unutmaz və hər şeyin Uca Allahın nəzarəti altında baş verdiyini nəzərə alıb qorxmaz, sıxılmaz ya da üzülməz. Həyatının hər anı kimi bunların da taleyin bir parçası olduğunu bilər və başına gələnləri böyük bir səbirlə qarşılayar. Hətta bəzən təvəkküldən uzaq bir insanın qorxub narahat ola biləcəyi hadisələrlə qarşılaşa bilər. Məsələn, bütün mal-dövlətini bir anda itirə bilər, uşağını itirə bilər, təhsil həyatı təhlükə altına girə bilər, işindən ayrılmaq məcburiyyətində qala bilər, ən yaxınlarından birinin amansız bir xəstəliyə tutulduğunu öyrənə bilər... Amma müsəlman heç bir hadisə qarşısında narahat olmaz. Allahın hər an yanında olduğunu bilər və Ona təvəkkül edər. Bütün bu və buna bənzər hallarda Allaha qarşı sarsılmaz bir təvəkkül və təslimiyyət içində olar. Allahın özü üçün yaratmış olduğu taleyə səmimi qəlbdən razı qalar və o taleyin heç bir dəyişiklik baş vermədən reallaşdığını unutmaz. Allah, insanların yaşayacaqları hər hadisənin bir kitabda yazılı olduğunu və insanların, kitablarında yazılanlardan başqa heç bir şey yaşaya bilməyəcəklərini bir çox ayəsiylə xəbər vermişdir. Bu ayələrdən biri belədir:

**...Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunis surəsi, 61)**

Allahdan lazım olduğu kimi qorxmayan bu kəslər isə, Allahın **"Doğrusu, onlar ürəklərində Allahdan çox sizdən qorxurlar. Çünki onlar anlamayan adamlardır" (Həşr surəsi, 13)** ayəsində bildirdiyi kimi insanlardan çox güclü şəkildə qorxarlar. Buna görə də Allahın **"...Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin!..." (Münafiqun surəsi, 4)** ayəsində diqqət çəkdiyi kimi

hər şeyin özlərinin əleyhinə olduğunu zənn edərlər. Quran əxlaqını yaşamaq mövzusunda aciz davrandıqlarından müsəlmanların aralarında olmalarına baxmayaraq Allahın, **“Onlar sizinlə həmrəy olduqlarına and içirlər. Halbuki onlar sizdən deyildirlər. Əslində, onlar qorxaq adamlardır” (Tövbə surəsi, 56)** ayəsində bildirdiyi kimi qorxu və narahatlıqlarla dolu tam fərqli bir ruh halı içində yaşayarlar. Bu narahatlıqlarını, süni problemlər və çaxnaşma mühitləri meydana gətirərək möminlərə də əks etdirmək istəyərlər. Qorxaq olduqları üçün ən kiçik bir mövzu onlar üçün problem və çaxnaşma deməkdir, hər şeyin tale içində yaşandığını düşünməzlər. Bu kəslər ruh hallarıyla yalnız özlərinə deyil, özləri kimi zəif imana sahib başqalarına da təsir edə bilərlər. Ruh hallarında üstünlük təşkil edən güclü çaxnaşma və qorxu halını xüsusilə onlara da hiss etdirməyə çalışarlar. Beləcə tərəfdar toplamaq üçün ortada qorxacaq ya da çaxnaşmaya düşəcək bir vəziyyət varmış təəssüratı yaradaraq narahatlıq meydana gətirməyi qarşılarına məqsəd qoyarlar.

Allahın **“...bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı...” (Hədid surəsi, 14)** ayəsində bildirdiyi kimi şübhələrə düşmüşlər. Möminlərin -Allahın izniylə- qalib gələcəklərinə qəlbən inanmadıqları üçün, ilk baxışda problem kimi görünən hər hadisəni şişirdilmiş şəkildə təqdim edərək, müsəlmanların içindən çıxılması çətin olan, həlli mümkün olmayan bir vəziyyətlə üz-üzə gəldikləri təəssüratını meydana gətirməyə çalışarlar. Çaxnaşma və problem mühitinin müsəlmanların gücünü azaldacaq bir vəziyyət olduğunu düşündüklərindən ötrü, bu istiqamətdəki ən kiçik bir inkişafı belə çox böyük bir fəlakətmiş kimi şərh edərək, müsəlmanlar içində çaxnaşma meydana gətirmək istəyərlər. Halbuki iman edənlər, şər kimi görülən bir hadisənin xeyir, xeyir kimi görülən bir hadisənin isə şər ola biləcəyini bildiklərindən, yaşadıqları hər anın -nə cür çətinliklərlə dolu olsa belə- Rəbbimiz tərəfindən bir çox hikmətlə yaradıldığına iman edərlər. Taleyə təslim olub heç bir narahatçılıq hissinə qapılmadan yaşayarlar. Özlərini passivləşdirməyə çalışan insanların çaxnaşma meydana gətirməyə istiqamətli hər cür tələsinin isə, **“...həqiqətən də, Allah kafirlərin hiyləsini zəiflədər” (Ənfal surəsi, 18)** ayəsində buyurulduğu üzrə boşa çıxacağını bilirlər.

## Fəlakət xəbərləri yayaraq iman edənlərin əzmlərini yox etməyə çalışmaları

Din əxlaqını tam mənasıyla yaşamaqda bitərəf davranan və müsəlmanları passivləşdirmək istəyən insanların ən diqqətə çarpan xüsusiyyətlərindən biri də həmişə neqativ söhbətlər aparmalarıdır. Din əxlaqını tam mənasıyla qavrayan, Quranı bütün həyatında tətbiq edən bir insan isə heç vaxt mənfi düşünməz və Allahın rəhmətindən

bir an belə olsun ümidini kəsməz. Bu, Allahın Quranda bir çox ayəsiylə bildirdiyi əhəmiyyətli bir mömin xüsusiyyətidir:

**...Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər". (Yusif surəsi, 87)**

**Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" (Zumər surəsi, 53)**

Ümidsizlik, insanların maddi-mənəvi güclərini zəiflədən, onlara mənəvi pozğunluq, şövqsüzlük, pessimizm və bədbəxtlik gətirən, iman etməyənlərə aid bir xüsusiyyətdir. Passivliyi müdafiə edən insanlar özləri ümidsiz olduqları kimi, müsəlmanların da ümidsizliyə qapılmalarını və bu yolla şövqlərini və həyəcanlarını itirmələrini qarşılarına məqsəd qoyarlar. Möminlərin, yaşadıqları hadisələrdə həmişə xeyir və hikmət görmələrini isə başa düşə bilməzlər. Özlərinin fəlakət kimi gördükləri hadisələrin, əslində bir çox cəhətdən müsbət irəliləyişlərə vasitəçi olacaq, Allahın müxtəlif hikmətlərlə yaratdığı hadisələr olduğunu heç cür qavraya bilməzlər. Buna görə də həmişə fəlakət xəbərçiliyi edər, müsəlmanları insanlardan qorxmağa, fikri mübarizələrini tərk etməyə çağırarlar. Möminləri ümidsizliyə salmaq istəyənlərin, peyğəmbərlərin dövründə də bənzər söhbətlər apardıqları Quranda bildirilən bir vəziyyətdir. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in dövründə də bəzi insanlar, möminləri ümidsizliyə sövq etməyə çalışaraq, onlara qarşı insanların toplandığını demiş, öz ağıllarına görə beləcə möminləri mübarizədən uzaq tutmağa çalışmışlar:

**Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" - dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" - dedilər. (Ali İmran surəsi, 173)**

Ayədən də göründüyü kimi, bu insanlar aşkarda möminlərə yaxşılıq edir, onları guya "dostcasına" xəbərdar edirlər. Halbuki, əsl məqsədləri möminlərin gözlərini qorxutmaq və onları mübarizədən döndərməyə çalışmaqdır. Ancaq saleh möminlər onların bu üslublarının təsiri altında qalmazlar. Ayədə də buyrulduğu kimi səmimi olaraq iman edənlər, bu insanlara "Allah bizə yetər, O nə gözəl qoruyandır!" deyərək,

onların fəlakət xəbərçiliyi etmələrindən təsirlənməzlər. Rəbbimiz Özünə təslim olan və təvəkkül edənlərə verdiyi gözəl qarşılığı isə sonrakı ayədə belə bildirir:

**Onlar özlərinə heç bir pislik toxunmadan, Allahın neməti və mərhəməti sayəsində geri döndülər və Allahın razılığına tabe oldular. Allah böyük lütf sahibidir. (Ali İmran surəsi, 174)**

Pasifizmi müdafiə edənlərin zənn etdiklərinin tam əksinə, iman edənlər və Allahın razılığına tabe olanlara heç bir pislik toxunmaz və onlara Rəbbimiz tərəfindən ruzi verilər. Bu insanların, möminlərin çətin vəziyyətdə qalacaqlarına dair səhvlərinin əsas səbəblərindən biri isə, cahiliyyə əxlaqını yaşayanların sayca çox, saleh möminlərin də sayca az olmasıdır. Bu kəslər, sayca çox olmalarının inkar edənlərə fikirlə bir üstünlük təmin edəcəyini zənn edərlər. Halbuki bunun nə qədər böyük bir səhv olduğunu Allah Quranda bildirmişdir:

**..."Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!" Allah səbir edənlərlədir. (Bəqərə surəsi, 249)**

Bəhsi keçən kəslər möminlərə ümidsizlik vermək üçün, görüləcək hər yeni xidmətin qarşısını almağa və çətin kimi göstərməyə də çalışırlar. Məsələn, islam əxlaqının izah ediləcəyi bir iş görülmədən əvvəl, insanların bu işlərə rəğbət bəsləməyəcəklərini, buna görə də belə bir işin lazım olmadığını iddia edirlər. Beləcə hələ ən başından möminlərin bu mövzudakı şövqlərini yox etmək niyyətindədirlər. Ya da Quran əxlaqını yaymaq üçün görülən işi ləngitmək məqsədiylə, mümkün olduğu qədər çox adama çatmaq əvəzinə, yavaş-yavaş nə qədər adama çata bilirsə o qədər insana izah etməyin kifayət edəcəyini irəli sürərlər. Məqsədləri, möminləri tənbəlləşdirmək və güclənmələrinin qarşısını almaqdır. Sanki qarşı tərəfə kömək etmək və məlumat vermək məqsədiylə deyirmiş kimi, görüləcək hər işin əvvəlcədən qarşısını almağa çalışarlar. Bütün bunların nəticəsində isə möminləri ümidsizliyə salaraq əzmlərinin azalmasını qarşılarına məqsəd qoyarlar.

Ancaq möminlər bu cür ifadələrlə ümidsizliyə qapılmazlar, tam əksinə daha da şövqlənərlər. Çünki insanın qarşısına çıxan və çətinlik kimi görülən hər hadisəni yaradan Allahdır. Bu çətinliklərin hamısında saleh möminlər üçün bir xeyir və gözəllik vardır. Və möminlər üçün, Allahın köməyiylə, öhdəsindən gəlinməyəcək heç bir çətinlik yoxdur. Bunu bilən möminlər hər zaman hər mövzuda ümidvar olarlar. Buna görə də

möminlərin üslubunda heç vaxt neqativlik olmaz. Həmişə etdikləri xidmətlərin ən mükəmməl şəkildə nəticələnəcəyinə inanırlar. Səmimi olaraq iman edənlər və peyğəmbərlərin yoluyla gedənlər, Rəbbimizin özlərini kömək və qələbə müjdələdiklərini bilirlər. Rəbbimiz, iman edənlərə belə müjdə vermişdir:

**Bizim elçi göndərdiyimiz qullarımız haqqında bu Sözümüz əzəldən deyilmişdi: "Həqiqətən, onlara kömək göstəriləcəkdir. (Saffat surəsi, 171-172)**

# PASSİV İNSANLARIN XÜSUSİYYƏTLƏRİ

**Ağıllarından passiv şəkildə**

**istifadə etmələri**

Müsəlmanların ən əhəmiyyətli xüsusiyyətlərindən biri ağıl sahibi olmalarıdır. Ağıl, zəkadan fərqli olaraq, yalnız səmimi iman edən insanlarda Quranla hökm vermələri nəticəsində yaranan məqsədəuyğun hiss etmə və qərar vermə qabiliyyətidir. Ancaq passiv kəslər, Quran əxlaqından çox kənar bir düşüncəyə sahib olduqlarından ötrü nə qədər təqlid etməyə çalışsalar da ağıllı davranışlar edə bilməzlər.

Əksər rəftarlarından, zehinlərində ciddi bir anlaşılmazlıq olduğu, hadisələri sağlam düşünən bir insan kimi qavrayıb başa düşə bilmədikləri diqqət çəkər. Üz-üzə gəldikləri hadisələrdən, müsəlmanların Quran anlayışı daxilindəki diaqnoz və anlayış formalarından xeyli fərqli nəticələr çıxararlar. Səmimi möminlər kimi diqqətcil olmadıqlarından, hadisələrin Qurana görə daşıdığı hikmətləri düşünüb ortaya çıxarmağa ağılları kifayət etməz.

Əqli bir passivlik içində yaşayan insanların bu vəziyyətlərini aşkar edən ən əhəmiyyətli dəlillərdən biri də çox vaxt üzlərində mənasız, donuq və boş ifadələrin olmasıdır. Diqqətcil, normal şüura sahib heç bir insan üzünə boş və mənasız bir ifadə vermək istəməz. Ancaq bəhsi keçən insanlar, bu ciddi keylik üzündən çox vaxt üzlərində mənasız bir ifadə ilə gəzərlər.

Müsəlmanlar arasında yaşayan passiv insanların şuurlarındaki anlaşılmazlıq, özləriylə dialoq içinə girən insanlar tərəfindən də hiss edilə bilər. Məsələn, özlərinə yönəldilən suallara verdikləri cavablar çox vaxt tam bir dəqiqlik daşımaz. Sualın qarşılığı olan cavab ya əskik olaraq alınar ya da heç alına bilməz. Həmçinin bu insanların danışarkən diqqətlərini danışdıqları mövzulara verməyi bacara bilmədikləri də dərhal aydın olar. Allah Quranda ağılsız insanların bu hallarına belə diqqət çəkir:

**Yoxsa elə hesab edirsən ki, onların əksəriyyəti eşidəcək və ya anlayacaq? Onlar heyvan kimidirlər, hətta, haqq yoldan daha çox uzaqlaşmışlar. (Furqan surəsi, 44)**

Bəhsi keçən insanlar hadisələri həqiqi mənada başa düşmək qabiliyyətindən məhrum olduqları üçün üzlərində həmişə bir çaşqınlıq, çaxnaşma və şübhə ifadəsi də diqqətə çarpar. Özlərindən olduqca asan bir iş görmələri tələb olunduqda belə təşvişə düşmələri, bu işi müvəffəqiyyətlə başa çatdırmalarına mane olar. Sadə bir işi görərkən

belə diqqətcil olmadıqları üçün, özlərinə və ətraflarındakı insanlara ya da əşyalara asanlıqla zərər verə bilərlər. Allah bir ayəsində, azğınlıq içində olanların çaşqınlığına da belə diqqət çəkmişdir:

**...Onları öz azğınlıqları içərisində sərgərdan dolaşan vəziyyətdə tərk edərik. (Ənam surəsi, 110)**

Səmimi müsəlman olmaq üçün Allaha dua etməyən, ürəklərində bu mövzuda bir istək olmayan insanlar, möminlərlə uzun və hikmətli söhbətlər də apara bilməzlər. Diqqətləri tez dağıldığından dərhal özlərində bir sıxıntı və narahatlıq hiss olunar. Allah, həqiqi mənada iman etməyən insanların sahib olduqları bu ruh halını belə bildirir:

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar. (Ənam surəsi, 125)**

Pasifizmi müdafiə edən insanlar, xüsusilə də Allahın ayələri oxunarkən və ya Allah xatırlanarkən tezliklə mövzunu dəyişdirməyə, diqqətləri başqa bir yerə çəkməyə çalışarlar. Ağıllı surətdə Allahın bütün varlıqlar və hadisələr üzərindəki mütləq nəzarətini lazım olduğu kimi qavramadıqlarından ötrü söhbət mövzusu seçməkdə də çətinlik çəkərlər. Halbuki bir müsəlman baxdığı hər şeydə Allahın sonsuz dəlillərini görə bilər. Ağıllı olduğundan insanlarla asan və səmimi bir dialoq qura bilər, Allahın yaratdığı hər gözəlliyi, hər neməti görüb şövqlə bu nemətləri yada sala bilər. Ayələr əsasında hikmətli və əsaslı söhbətlər edə bilər. Bu kəslər isə ağıllarındakı durğunluq üzündən ancaq süni mövzular tapa bilərlər və bunlar barəsində danışa bilərlər. Məsələn, geyim, musiqi, maqazin, siyasət mövzularındakı məlumatları və ya qəzetlərdən oxuduqları yazıları və xəbərləri nəql etməkdə çətinlik çəkməzlər. Amma Allahı yad etməkdə, Quran ayələrinin hikmətlərini izah etməkdə, iman həqiqətlərini dilə gətirməkdə bitərəf davranarlar. Əlbəttə ki, bir insanın ictimai, siyasi, aktual hər mövzuda söhbət apara bilməsi, ünsiyyətcil olması yaxşı şeydir. Ancaq burada normal olmayan, bəhsi keçən insanların bu mövzuları Allahı yad etməyə dəyişdirmələri və bir qaçış yolu kimi istifadə etmələridir.

## Quranı həyatlarına tətbiq etməkdə

## passiv davranmaları

Müsəlmanlar içində həmişə passiv bir ruh halı yaşatmağa çalışan və bu cəhətləriylə tanınan kəslər Quran ayələri və Allahın əmrlərini bilirlər. Ancaq möminlərdən fərqli olaraq bu onlarda yalnız məlumat kimi olar. Müsəlmanlara aid inanc formasını və gözəl əxlaq xüsusiyyətlərini tam olaraq qəbul etməz və yaşamazlar.

Bu kəslərin Qurana uyğun bir əxlaqa sahib olmamaları, müsəlmanlar arasında həmişə bu cəhətləriylə diqqət çəkmələrinə, pis əxlaq və xarakterləriylə ön plana çıxmalarına səbəb olar. Passivlikdə israr edən bu insanlar, əslində ən başından bəri din əxlaqını əsl mənada və səmimi olaraq yaşamaq niyyətində olmamışlar. Bu, onların əvvəldən bəri Quran hökmlərini və möminlərə xas əxlaq xüsusiyyətlərini mənimsəmələrinə də mane olmuşdur. Allahın əmr və qadağalarına tabe olurmuş kimi görünsələr də, əslində əvvəldən bəri gətirmiş olduqları cahiliyyə məntiqlərini həyatlarından çıxarmazlar. Quran ayələrini, əsassız cahiliyyə qaydalarıyla birlikdə izah etmək kimi azğın bir yola düşərlər. Buna görə də müsəlmanların ümumi inanc və anlayışlarından çox fərqli bir anlayışa sahib olarlar. Mənfəətlərinə zidd olan, əhval-ruhiyyələrini pozan bir hadisəylə qarşılaşdıqları vaxt dərhal təvəkkülsüz, səbirsiz, qorxaq, təşvişə düşmüş, həyasız bir ruh halına bürünərlər. Din əxlaqını həqiqi müsəlmanlar kimi, Quranda bildirildiyi həqiqi halıyla yaşamağa razı olmazlar. Onsuz da əxlaqlarına və həyat tərzlərinə baxdıqda, müsəlmanların ümumi hallarından çox fərqli olduqları dərhal görülə bilər. Qurana tabe olan müsəlmanların səmimi, təslimiyyətli, ağıllı davranışları, hikmətli söhbətləri və Allaha yaxınlıqları bu kəslərdə hiss olunmaz. Əksinə ətraflarındakı insanlara din əxlaqını mənimsəmiş bir adamın yaşaması qeyri-mümkün olan bir soyuqluq, ciddilik, səmimiyyətsizlik, sünilik və gərginlik hissi verərlər.

Quranda, Peyğəmbərimiz (s.ə.v)-in yanında olan insanların arasında da bu xarakterdə kəslər olduğuna işarə edilir. Bu kəslər Peyğəmbərimizin çox yaxınlığında olduqları, Onunla danışa bildikləri, Onun təbliğinə şahid olduqları halda, Quran əxlaqına uyğun yaşamaq mövzusunda ciddi bir passivlik göstərmişlər. Hətta Peyğəmbərimiz (s.ə.v) kimi mübarək bir insana qarşı yalan danışmaqda heç bir problem görməmişlər. Allah münafiq xarakterli insanların bu əxlaqlarını bu yolla ifşa edərək bizlərə bildirir:

**Münafiqlər sənin yanına gəldikləri zaman: “Biz şəhadət veririk ki, sən Allahın Elçisisən!” – deyirlər. Allah da bilir ki, sən Onun Elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar. (Münafiqun surəsi, 1)**

Bu kəslər Peyğəmbərimiz (s.ə.v)-i yaxından tanımalarına və Quran ayələrini bilmələrinə baxmayaraq, hz. Məhəmməd (s.ə.v)-in haqq peyğəmbər olduğuna qəlbən inanmamışlar. Ancaq özlərini müəyyən bir müddət müsəlmanlardan gizlətmək və onların özlərinə təmin etdiyi imkanlardan faydalanmaq məqsədiylə Peyğəmbərimiz (s.ə.v)-ə qarşı yalan danışmaqda bir problem görməmişlər.

Bu insanlar səbirlilik, təvazökarlıq, fədakarlıq, sədaqət, vəfa və buna bənzər mömin xüsusiyyətlərini yaşamaq mövzusunda da həmişə geridədirlər. Hərəkətlərində cahiliyyə xarakteri, vərdişləri, reaksiyaları və rəftarları hakimdir. Məsələn, təvazökarlığın necə olmalı olduğunu bilmələrinə baxmayaraq qürurlu, öz ağlını üstün görən, yanına yaxınlaşıb səmimi ünsiyyət qurula bilməyən bir insan olarlar. Necə səbir göstərmələri lazım olduğunu bilmələrinə baxmayaraq, olduqca tələskən, gözləməkdə çətinlik çəkən, tələblərinin dərhal reallaşmasını istəyən səthi bir xarakter göstərərlər. Eynilə təvəkküllü və taleyin yaşandığını bilən bir insanın ümumi halını çox yaxşı bilmələrinə baxmayaraq, həmişə bu məsələdə problem yaşayan, hadisələrin nəticəsini gözləməyə dözə bilməyən, yaşadıqlarını xeyir gözüylə qiymətləndirməkdə çətinlik çəkən bir xarakter nümayiş etdirərlər. Dərhal təşvişə düşər, şübhəyə qapılar və qorxarlar. Allahın, baş verən bütün hadisələrdəki mütləq nəzarətini dərk edə bilmədikləri etirazlarıyla açıq bir şəkildə hiss etdirərlər.

Hər mövzuda vicdanla hərəkət etmək gözəl əxlaqın əsasıdır və müsəlman xüsusiyyətidir. Müsəlmanların arasındakı passiv insanlar isə tam olaraq vicdanla hərəkət etmirlər. Özlərinə asan gələn mövzularda vicdanla tabe olar, nəfslərinə ağır gələn, mənfəətləriylə zidd düşən və ya ərindikləri mövzularda tabe olmazlar. Məsələn, bu insanlar əfvi, mülayim bir əxlaqı izah edə bilər, mövzuyla əlaqədar ayələri də deyə bilərlər. Lakin, belə bir əxlaqın göstərilməsi lazım olan bir an gəldikdə nəfslərinə tabe olarlar. Məsələn, vicdanları digər müsəlmanlar kimi aktiv olmağı, hər mövzuda tam bir müsəlman şövqü içində yaşamağı deyərkən bu insanlar nəfslərinə tabe olaraq fəaliyyətləri zəiflətməyi, ləngitməyi mənfəətlərinə daha uyğun görərlər. Halbuki həqiqi bir müsəlmanın vicdanı, nəfsinə daim üstün gələr. Allah bir ayəsində müsəlmanların bu əxlaq xüsusiyyətini belə bildirmişdir:

**İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər... (Bəqərə surəsi, 207)**

Müsəlman qəzəbini boğar, kin saxlamaz. Nəfsindəki pislikləri məğlub etməkdən də böyük bir zövq alar. İnsanları əfv etməkdən, bağışlamaqdan, onlara qarşı tolerant olmaqdan xoşu gələr. Çünki Allah Quranda müsəlmanlara belə əmr etmişdir:

**Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir. (Nur surəsi, 22)**

Din əxlaqını yaşamaqda passiv davrananlar bu mövzulara da lazımi qədər əhəmiyyət verməz, nəfslərinə zidd düşən hallarda bir anda bütün kinlərini və qəzəblərini ortaya büruzə verə bilər. Bəzən də müsbət ya da mənfi heç bir reaksiya verməyərək hərtərəfli passiv bir rəftar göstərərlər. Beləcə müsəlmanlar üçün əhəmiyyətli olan mövzuların özlərini maraqlandırmadığı mesajını vermiş olarlar. Mənəvi dəyərlərə qarşı aparılmış fikri bir hücum qarşısında belə haqlı bir qəzəb duymazlar. Məqsədləri, bu biganə hallarıyla, laqeyd, reaksiyasız olmağın məqbul olduğunu ətraflarındakı zəif kəslərə hiyləgərcəsinə hiss etdirməkdir. Bu metodla başqa insanları da passivləşdirməyi düşünərlər. Halbuki bu tərz reaksiyaların nə mənaya gəldiyini çox yaxşı bilən bəsirət sahibi müsəlmanlar, ətraflarında din əxlaqını yaşamaq mövzusunda bitərəf qalan, münafiq xarakterli insanları gördükcə daha diqqətli və təmkinli hərəkət etməyə başlayarlar.

Burada vurğulanmalı olan əhəmiyyətli bir məqam da bu insanların gözəl əxlaq nümayiş etdirməməyə xüsusilə etina etmələridir. Daha əvvəl də ifadə etdiyimiz kimi bu kəslər insanpərvərliyi, fədakarlığı, sədaqəti, mərhəməti, səbri, bir sözlə, gözəl əxlaqı bilməyən insanlar deyillər. Əksinə bunların hər birini çox yaxşı bilir, soruşulduğu təqdirdə Quranda olan ayələrlə izah edə bilərlər. Lakin həm imani cəhətdən zəif olduqları, həm də müsəlmanlara öz aləmlərində əhəmiyyət vermədiklərini vurğulamaq üçün bunları qəsdən tətbiq etməzlər. Yoxsa bu insanlar bunun qarşılığında böyük bir maddi mənfəət əldə edəcəklərini bilsələr, lazım olan hər cür fədakarlığı edərlər. Özlərindən istənilən əxlaqı qüsursuz deyiləcək bir şəkildə yerinə yetirərlər. Məsələn, mənfəət əldə edəcəkləri adam bir şirkətin yüksək vəzifəli işçisi isə o adamın hər dediyini əskiksiz yerinə yetirər, olduqca uyğun bir rəftar nümayiş etdirər, o adamın hər cür rəftarına qarşı dözməyə çalışar, itaətli və təvazökar bir rəftar göstərərlər. Əlbəttə ki, bunları etmələri onların gözəl əxlaqlı olduğunu göstərməz. Əksinə lazım gəldikdə gözəl davranmağı bildikləri halda, bunu tətbiq etməmələri, bu kəslərin hiyləgərliyinin aydın bir dəlilidir.

Bu kəslərdə diqqət çəkən əhəmiyyətli bir məqam da Quran əxlaqından olduqca uzaq yaşamalarına baxmayaraq, nəfslərinə ağır gələn bir vəziyyət meydana gəldikdə, ayələri müsəlmanlara qarşı istifadə edərək özlərini müdafiə etməyə cəhd etmələridir. Bu vəziyyətdə qarşı tərəfə, etdiklərinin taledə olduğunu, səhvləri öz istəkləriylə etmədiklərini, özlərinə qarşı mütləq bir hüsnü-zənlə yaxınlaşılmasının lazım olduğu istiqamətində öyüd-nəsihət verərlər. Məqsədləri qarşı tərəfin təbliğinə mane olmaq, insanı danışa bilməz, Quranla öyüd-nəsihət verə bilməz hala gətirməkdir. Halbuki müsəlmanlar hər şeyin taledə olduğunu və Allahın izniylə meydana gəldiyini onsuz da bilirlər. Ancaq dünyadakı imtahanlarının bir tələbi olaraq hadisələri görünən hallarıyla və Quranda verilənlər istiqamətində qiymətləndirərlər. Buna görə də müsəlmanları passivləşdirmək məqsədi daşıya biləcək hər cür rəftara və münafiq əlamətlərinə qarşı hər an diqqətli olmaq və lazımi tədbirləri görmək vəziyyətindədirlər.

Allah Quranda, **"ayələrimizi qüvvədən salmağa cəhd göstərənləri isə ən pis, ağrılı-acılı əzab gözləyir..." (Səba surəsi, 5)** ayəsiylə bu kəslərin həqiqətləri ört-basdır etmək və müsəlmanların fəaliyyətlərini zəiflədib onları passivləşdirmək məqsədiylə "acizliyə salan səylər göstərdiklərini" bildirir. Ümumi əxlaqlarından ötrü, yanlarında oxunan ayələri və bunlara aid şərhləri gələcəkdə özlərini təmizə çıxarmaları lazım gəldikdə istifadə etmək məqsədiylə dinləyən və yadda saxlayan bəhsi keçən kəslərin bu şeytani səyləri heç bir şəkildə fayda verməz. Bu kəslərin, ayələri öz yanlış zehniyyətləri daxilində şərh etməyə cəhd etmələri bir ayədə belə xəbər verilmişdir:

**Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər. (Ali İmran surəsi, 7)**

**Saleh əməllər etmək barəsində**

**şövqsüz və həvəssiz olmaları**

Allah Quranda bir çox ayədə saleh əməllər etməyin əhəmiyyətini bizlərə xatırlatmışdır. Bu ayələrdən bəziləri belədir:

**İman gətirib yaxşı əməl işləyənləri tükənməz nemətlər gözləyir". (Fussilət surəsi, 8)**

**İman gətirib yaxşı işlər görənlərə gəlincə, Rəbbi onları Öz mərhəmətinə nəsib edəcəkdir. Bu, açıq-aşkar müvəffəqiyyətdir. (Casiyə surəsi, 30)**

**Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər məxluqların ən yaxşısıdırlar. (Beyyinə surəsi, 7)**

Din əxlaqını tam olaraq qəbul etməyən insanların ən diqqət çəkən xüsusiyyətlərindən biri isə, saleh əməl etmək mövzusundakı həvəssizlikləri və tənbəllikləridir. Allah **"...cihada çıxdıqda özlərini yubandırar..." (Nisa surəsi, 72)** ayəsiylə müsəlmanlar arasındakı bu cür şəxslərə diqqət çəkmişdir. Bu insanlar yaxşı işlər görmək mövzusunda olduqca bitərəf bir münasibət göstərərlər. Öz mənfəətlərinə xidmət etmədiyi müddətcə müsəlmanlara fayda verəcək bir iş görməyə çalışmazlar. Allah ayəsində saleh əməllər edənlərlə bitərəf davranan insanlar arasındakı fərqi belə bildirmişdir:

**İman gətirib xeyirxah işlər görənlərə gəldikdə isə, Allah onların mükafatlarını tam verəcək və Öz lütfündən onlar üçün istədiyi qədər artıracaqdır. Allaha ibadət etməyi özlərinə ar bilənləri və təkəbbürlük göstərənlərə gəlincə, Allah onları ağrılı-acılı bir əzaba düçar edəcəkdir. Onlar Allahdan başqa özlərinə nə bir himayədar, nə də bir yardımçı tapacaqlar. (Nisa surəsi, 173)**

Bəhsi keçən insanlar hər an möminləri tərk edib, cahiliyyə həyatlarına geri qayıtma qapısını açıq qoyub getdiklərindən, edəcəkləri saleh əməlləri öz aləmlərində itkiyə gedən bir vaxt kimi görərlər. Əgər çox çalışar və zəhmət çəkərlərsə gələcəkdə peşmanlıq çəkə biləcəklərini hesablayar və buna görə də xidmət məsələsində olduqca zəif və həvəssiz olarlar.

Allaha qəti olaraq inanan bir insan isə Allahın rizasını, rəhmətini və cənnətini qazanmaq üçün əlindən gələnin ən çoxunu etmək istəyər. Bir işi başa çatdırıb tezliklə başqa bir xeyirli işə keçər, mümkün ola biləcək ən sürətli, ən geniş və ən doğru şəkildə dinə xidmət edər. Allaha olan bağlılığını əlindən gələn ən xeyirli xidmətləri ömrünə sığdıraraq göstərmək üçün ciddi səy göstərər. Daima İslamın, müsəlmanların xeyri üçün düşünər, bütün insanların sülh, dostluq, etibar və hüzur içində yaşamaları üçün fikirlər gətirər və bunları həyata keçirər. Buna görə də həqiqi dindarlığın vacib əlamətlərindən biri Allah rizası üçün edilən xidmətlərdəki şövq və həvəsdir.

Ancaq qəlbində xəstəlik olan insanlar, qarşılıqsız olaraq faydalı bir xidmət etmək istəməzlər. Qəlblərində onları qarşılıqsız xidmətə sövq edəcək qədər Allah sevgisi və qorxusu yoxdur. Buna görə də qarşılıqsız olaraq yorulmaq, lazım gəldikdə yuxusuz qalmaq, fədakarlıq göstərmək onlara çətin gələr. "Əgər dünyəvi bir mənfəətim olmayacaqsa niyə özümü yorum" şəklində azğın düşündükləri üçün daima özlərində bir tənbəllik olar. Maddi qazanc əldə etmə ehtimalı olan işlər üçün gecə-gündüz yuxusuz qalarkən, yorularkən hətta hər cür fədakarlığı gözə alarkən, Allah rizası üçün ediləcək bir xidməti öz aləmlərində böyük bir yük olaraq görər və gördükləri hər işdə möminlərə minnət qoymaq istəyərlər. Ancaq, əlbəttə ki, bu heç bir iş görməzlər mənasına da gəlməz. Bu hiyləgər xarakterli insanlar özlərini ətrafdakılara dindar göstərəcək, diqqət çəkməyəcək qədər xidmət göstərər və minimum zəhmət sərf edərək həyatlarını davam etdirmək istəyərlər. Çox vaxt da özlərini bildirməmək üçün müxtəlif hiyləgərliklər edərlər. Xəstəlik, qabiliyyətsizlik, bacarıqsızlıq, qavramaqda çətinlik çəkmək kimi bəhanələrlə özlərini həmişə geridə tutarlar. Beləcə müsəlmanları, yaxşı iş görmək istədiklərinə, lakin bunu bacara bilmədiklərinə və əqli cəhətdən də qavraya bilmədiklərinə inandırmağa çalışarlar. Allah bu hiyləgər məntiqdən istifadə edən insanlara, Əsri-Səadət dövründə yaşayan münafiqlərin Peyğəmbərimiz (s.ə.v) ilə birlikdə döyüşə getməkdən necə qaçdıqlarını bildirərək diqqət çəkmişdir:

**Və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa müdafiədə durun!" - deyildi. Onlar: "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik" - dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir. (Ali İmran surəsi, 167)**

Münafiq xarakterə sahib bu insanların cahiliyyəyə olan sevgiləri Allaha olan sevgilərindən daha güclüdür. Buna görə də cahiliyyə əxlaqının yaşandığı mühitlərdə aktiv, gümrah, şad olduqları halda, möminlərin arasında olarkən bezgin, ərincək və tənbəl olarlar. Bu xarakterdəki insanların Allah tək olaraq xatırlandığı vaxt qəlblərini nifrət bürüdüyü, Ondan qeyriləri yad edildiyi vaxt isə sevindikləri bir ayədə belə bildirilmişdir:

**Allah tək olaraq xatırlandığı zaman Axirətə inanmayanların qəlbini nifrət bürüyür. Ondan qeyriləri yad edildiyi zaman isə onlar sevinirlər. (Zumər surəsi, 45)**

Həqiqi dindarlar isə, Allahın rizasını, rəhmətini və cənnətini qazanmağın ümidi və sevinciylə hər anlarında çox şövqlü, gümrah və çalışqandırlar. Allah ayələrdə möminlərə belə buyurmuşdur:

**İşlərini qurtaran kimi Allah yolunda çalış! Ancaq Rəbbinə üz tut! (İnşirah surəsi, 7-8)**

Allah başqa bir ayəsində isə möminlərə **"...yaxşı işlər görməkdə bir-birinizlə yarışın..." (Bəqərə surəsi, 148)** deyə əmr edir. Bu ayələrə əməl edən möminlər, bir an belə boş durmadan, gün ərzində həmişə yaxşı işlərin arxasınca qaçarlar. Hər mövzuda bir-birlərinə üstünlük verən, əsla rəqabət aparmayan möminlər, yaxşı işlər görmək və yaxşılıq etmək mövzusunda bir-birləriylə yarış içindədirlər. Hər an bir savab qazanmaq üçün fürsət axtarır, heç vaxt ruhdan düşmədən, başqasına həvalə etmədən, ləngimədən qarşılarına çıxan hər saleh əməli yerinə yetirərlər. Yorulduqda isə, bunu dilə belə gətirmədən başqa bir işlə yorulmağa davam edərlər. Etdiklərindən ötrü isə heç kimə minnət qoymaz, heç kimə yaxşılıq edirmiş görünüşü verməzlər. Əksinə Allaha, Allahın rizasına və rəhmətinə, ölmədən əvvəl qazanacaqları savablara möhtac olduqlarını bilərək təvazökarlıq və qənaətkarlıqla, heç kimdən tək bir təşəkkür belə gözləmədən saleh əməllər edərlər.

Göründüyü kimi din əxlaqını mənimsəməyən, **"...Allaha şübhə ilə ibadət edir..." (Həcc surəsi, 11)** insanlarla, həqiqi səmimi möminlərin halları, rəftarları və dünyagörüşləri tamamilə bir-birindən fərqlidir. İlk baxışda hər ikisi də müsəlmandır, hər ikisi də dindar olduğunu, Allaha və axirət gününə iman etdiyini deyir. Ancaq Qurana görə qiymətləndirən bir insan üçün, dini əsl mənada yaşayan və özünü tamamilə Allaha təslim etmiş bir adamla, saxta dindarlıq göstərən adam arasındakı fərq aydındır.

### Çətin vaxtlarda bəhanələr gətirərək geri qalmaları

Passivlik tərəfdarları islamı və müsəlmanları maraqlandıran mövzularda geridə qalmağı seçən insanlardır. Həmişə kənardan, hiyləgər bir gözlə səssiz bir şəkildə prosesləri izləməyi seçərlər. Heç vaxt hadisələrə müdaxilə edən, zərəri və ya təhlükəni aradan qaldırmaq üçün ağıldan istifadə edən kəslər olmazlar. İslamın mənfəətini qorumağa meyil etməzlər. Bir insanın əbədi cənnət həyatını itirməsinə, imanının yox olmasına hiyləgərcəsinə tamaşa edərlər. Müsəlmanların faydalı işlərinə və gözəl səylərinə şahid olduqları halda, özləri tənbəlcəsinə oturmağı seçərlər. Tətbiq etdikləri

sistem, ya asan işlərə nail olmaq ya da bəzi əsassız bəhanələr ortaya ataraq saleh əməllərdən uzaq durmaqdır. Allah onların cahilanə bir sayıqlıq içində tətbiq etdikləri bu siyasətlərinə qarşı müsəlmanları xəbərdar edər. Onların, Öz qatında, çalışqan, hər işi qüsursuz deyiləcək bir diqqət və səylə tamamlayan müsəlmanlarla eyni olmadıqlarını xəbər verir:

**Doğrudanmı siz hacılara su verməyi və Məscidulharamı abadlaşdırmağı Allaha və Axirət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eyni tutursunuz? Bilin ki, onlar Allahın yanında bərabər sayılmırlar. Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 19)**

**Möminlərdən – üzürlülər istisna olmaqla – evdə oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri evdə oturanlardan dərəcə etibarilə üstün etdi. Allah onların hamısına ən gözəl nemət vəd etmişdir. Allah mücahidləri evdə oturanlardan böyük bir mükafatla üstün etmişdir. (Nisa surəsi, 95)**

Müsəlmanları cahilanə üsullarla aldadacaqlarını güman edən bu xarakterdəki kəslər üçün əldə etdikləri kiçik bir mənfəətin ya da qazancın əhəmiyyəti çox böyükdür. Onlar bir qədər də çox oturmaq, bir qədər də az iş görmək ya da gördüyü işi bir qədər də az vaxt sərf edərək başdan sovdu bir şəkildə başa çatdırmaqla xeyir qazanacaqlarını zənn edərlər. Ən əhəmiyyətlisi də bu yolla öz aləmlərində ayıq-sayıq olduqlarını, özlərini yormayaraq, səmimi müsəlmanlar kimi diqqət və ya iradə sərf etməyərək ən doğru işi gördüklərini zənn edərlər.

Bu kəslərin əsl məqsədləri müsəlmanlar arasında passiv bir hərəkata liderlik etmək olduğundan, bu məqsədlərinə uyğun hər cür əxlaqi zəifliyi göstərərlər. Məsələn, müsəlmanlar Quran əxlaqının təbliğ edilməsi, insanların qəlbinin İslam əxlaqına isinişdirilməsi üçün var gücləriylə çalışarkən, onlar əksinə, müsəlmanların bu işlərindən qaçmaq yolları axtararlar. Bu məqsədlə ağlasığmaz bəhanələr ortaya atmaqda da bir problem görməzlər. Allah, müsəlmanlarla bu kəslər arasında ən fərqləndirici xüsusiyyətlərdən birinin iki qrup arasındakı bu fərq olduğunu xəbər verir:

**Allaha və Axirət gününə iman gətirənlər Allah yolunda malları və canları ilə cihad etmək üçün səndən izin istəməzlər. Allah müttəqiləri tanıyır. Ancaq Allaha və Axirət**

**gününə iman gətirməyən və qəlbi şəkk-şübhəyə düşənlər döyüşə getməmək məqsədilə səndən izin istəyirlər. Onlar öz şübhələri içində tərəddüd edirlər. (Tövbə surəsi, 44-45)**

Ayələrdən də aydın olduğu kimi bu insanlar müsəlmanların etdiyi kimi səmimi bir səy göstərmək niyyətində olmadıqlarından dərhal ortaya bəhanələr ataraq qaçmağa meyil edərlər. Quranda Peyğəmbərimiz (s.ə.v)-in dövründə də yaşamış bəzi zəif xarakterli kəslərin ortaya atdıqları bəzi bəhanələr belə bildirilir:

**Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!" - dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar. (Tövbə surəsi, 81)**

**"...İçərilərindən bir qismi isə: "Evlərimiz nəzarətsiz qalıb" - deyərək Peyğəmbərdən izin istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər". (Əhzab surəsi, 13)**

**"...Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!..." (Tövbə surəsi, 42)**

Cahiliyyə həyatını tərk edə bilməyən, dünya həyatına duyduqları ehtiraslı bağlılıqdan uzaqlaşa bilməyən bu insanlar, dünyanı axirətdən üstün tutduqlarını açıq şəkildə ifadə edə bilməzlər. Buna görə də niyyətlərini, ortaya atdıqları müxtəlif bəhanələrlə iman edənlərə hiss etdirərlər. Yuxarıdakı ayələrdə bildirildiyi kimi, bəziləri fiziki olaraq digər müsəlmanlar kimi güclü və sağlam olmadığı, bəziləri havanın isti olmasının sağlamlığına mənfi təsir etdiyi kimi bəhanələr ortaya ataraq, bəziləri də sosial vəziyyətinin islam əxlaqını lazım olduğu kimi yaşamasına mane olduğunu, digər müsəlmanlar kimi səy göstərməsinə imkan vermədiyini iddia edərək qaçarlar.

Bu kəslər izin istəyərkən ortaya atacaqları bəhanəni və istifadə edəcəkləri ifadələri də hiyləgərcəsinə seçərlər. Ortaya atdıqları bəhanələrlə müsəlmanları passivləşdirə biləcəklərini, onların özlərinə haqq verəcəklərini zənn edərlər. Necə ki, Quranı yaxşı bilməyən bir insan bu kəslərin izin istəyərlərkən istifadə etdikləri məntiqi ya da ortaya atdıqları bəhanələri normal qarşılaya bilər. Halbuki, Quranda izah edilən münafiq xarakterini çox yaxşı bilən müsəlmanlar, bəhsi keçən kəslərin din əxlaqından uzaqlaşmaq məqsədiylə istifadə etdikləri bu ifadələrin, onların həqiqi niyyətlərini ortaya

qoyduğunu görərlər. Bu əsnada Allahın adını zikr edərək guya səmimiymiş kimi görünməyə çalışmaları, həmişə and içmələri də müsəlmanlar üçün əhəmiyyətli bir dəlildir. Çünki Allah Quranda bu cəhətlərinə də diqqət çəkmişdir.

Peyğəmbərimiz (s.ə.v)-in dövründə də münafiqlər buna bənzər taktikalara müraciət etmişlər. Bu insanlar öz aləmlərində hz. Məhəmməd (s.ə.v)-i səmimi olduqlarına inandıraraq, özlərini haqlı kimi görməsini təmin etməyə çalışmışlar:

**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" - deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir. (Tövbə surəsi, 42)**

**Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın Elçisisən!" - deyirlər. Allah da bilir ki, sən Onun Elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar. Onlar andlarını sipər edib insanları Allah yolundan döndərdilər. Həqiqətən, onların törətdikləri əməllər necə də pisdir! (Münafiqun surəsi, 1-2)**

Ayələrdən də aydın olduğu kimi münafiq xarakterli insanlar, and içməklə və cəlbedici ifadələrdən istifadə etməklə özlərini yaxşı niyyətli və imanlı göstərməyə çalışarlar. Ancaq Allah, verdiyi bu nümunələrlə onların həqiqi niyyətlərini bütün müsəlmanlara göstərərək bildirir.

## Sevgi və hörmət göstərməkdə passiv olmaları

Passiv şəxsiyyətləriylə müsəlmanlar arasında ayrı bir xarakter və mədəniyyət meydana gətirməyə səy göstərən bu kəslərin tanınmasında başqa bir təyin edici amil də, bu şəxslərin iman edənlərə qarşı soyuq davranmalarıdır.

İman edənlər axirətdə əbədiyyən bir yerdə yaşamağı ümid edən insanlardır. Onların bu həyəcanları hələ dünyada olarkən əhval-ruhiyyələrində hiss olunar və Onları bir-birlərinə bağlayar. Allah möminlərin, "bir-birlərinə birləşmiş bir bina kimi saf bağladıqlarını" (Saf Surəsi, 4) bildirərək, iman edənlər arasındakı yaxınlıq, səmimiyyət və dostluğa diqqət çəkmişdir. Allah müsəlmanlar arasındakı bu güclü əlaqəni Quranda belə ifadə edir:

**Möminlər, həqiqətən də qardaşdırlar... (Hucurat surəsi, 10)**

**Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz... (Ali İmran surəsi, 103)**

Müsəlmanların arasındakı bu dərin və Allaha olan imanlarına əsaslanan güclü əlaqə, özüylə bərabər bir-birlərinə sıx bağlılıq, sevgi və hörmət gətirər. Ancaq müsəlmanlar arasındakı sevgi və hörmət cahiliyyə insanlarında müşahidə olunan müvəqqəti və zəif təməllərə əsaslanan sevgi kimi deyil. Yaşanılan sevgi, tamamilə Allaha olan dərin sevgi və qorxuya əsaslanan olduqca güclü bir hissdir. Müsəlmanlar Allaha olan iman və sədaqətlərindən qaynaqlanan bir sevgiylə bir-birlərini sevərlər. Qarşılarındakı insanlarda gördükləri iman əlamətləri nə qədər güclüdürsə, o insanlara olan etibarları, sevgi və hörmətləri də o qədər güclü olar.

Allah Quranda şəfqət hissinə sahib olmağı üstün bir fəzilət olaraq bildirir:

**Üstəlik Öz tərəfimizdən bir şəfqət və paklıq da bəxş etdik... (Məryəm surəsi, 13)**

Ancaq qarşısındakı insanlara iman gözüylə baxmayan, müsəlmanların Allahın rizasını qazanmaq üçün göstərdikləri səmimi səyi qiymətləndirməkdən məhrum olmuş kəslər, onlara qarşı sevgi ya da sadiqlik hiss etməzlər. Bu cür insanlar maddi mənfəət əldə edə bilmədikləri bir insana sadiq olmağı ağılsızlıq kimi görərlər.

Bu kəslər yalanlarıyla sevgisizliklərini nə qədər gizlətməyə çalışsalar da soyuq və sevgisiz baxışları və müsəlmanlarla səmimi ünsiyyət qura bilməmələriylə əsl niyyətlərini göstərmiş olarlar. Xüsusilə də şəxsiyyətlərində hakim olan soyuq, biganə və insanlardan uzaq xarakter, bu insanların həqiqi xarakterləri haqqında müsəlmanlara ciddi əlamətlər verir. Müsəlmanların daxilində hakim olan isti, mehriban, səmimi dostluq, əvəzinə bu kəslərdə soyuq, tərs, uzaq və fərqli bir şəxsiyyət hakimdir. Sevgilərini ifadə etmək qabiliyyətlərinin olmamasından ötrü normal insanların gözlərində yaranan sevgini ifadə edən isti və dostyana məna bu kəslərdə meydana gəlməz. Əksinə hiyləgər, çoxbilmiş, ciddi, mənasız, soyuq və əsrarəngiz baxışlarıyla müsəlmanları izləyərlər. Hz. Məhəmməd (s.ə.v)-in dövründə yaşayan bəzi kəslərin, Quranı dinləyərkən

Peyğəmbərimiz yönəltdikləri baxışları bu vəziyyətin nümunələrindəndir. Rəbbimiz, bu əxlaqdakı kəslərin baxışlarına belə diqqət çəkmişdir:

**Həqiqətən, kafirlər Zikri (Quranı) eşitdikləri zaman öz baxışları ilə az qala səni gözə gətirələr. Onlar çarəsizlikdən: "O, dəlidir!" - deyirlər. Halbuki bu Quran aləmlər üçün öyüd-nəsihətdən başqa bir şey deyildir. (Qələm surəsi, 51-52)**

Ümumi mənada baxdıqda heç bir müsəlmanla səmimi bir ünsiyyət qura bilmədikləri, yaxın deyə biləcəkləri bir dostlarının olmadığı görülər. Bu kəslərin qurduqları dostluqlar sonrakı səhifələrdə də qeyd edəcəyimiz kimi, özləri kimi zəif gördükləri kəsləri öz tərəflərinə çəkərək passivləşdirmək məqsədi daşıyır. Allah qəlbində xəstəlik olan insanların bir-birlərini tanıyıb müdafiə etdiklərinə və bir-birlərinə yaxınlıq göstərdiklərinə ayələrdə belə diqqət çəkir:

**Onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər, öz ailələrinin yanına fərəhlə qayıdırdılar, (Mutaffifin surəsi, 30-31)**

Saleh müsəlmanların Qurana əsaslanan əxlaq anlayışlarında sevginin, səmimiyyətin axirətə istiqamətli güclü bir dostluğun olduqca əhəmiyyətli yeri vardır. Müsəlmanlar səmimi bir insanı gözəl baxışlarından, sevgiyə olan həssaslıqlarından və yaxınlığından müəyyənləşdirə bilərlər. Bu dəyərlərə sahib olmayan insanlara, yəni yuxarıda saydığımız şəkildə soyuq, uzaq, sevgisini hiss etdirməyən bir xarakter göstərənlərə isə haqlı olaraq şübhəylə baxarlar. Onların bu soyuq rəftarlarının altında din əxlaqına və müsəlmanlara qarşı kin və nifrət bəslədiklərindən şübhələnərlər. Allah müsəlmanlara, bu kəslərə etibar edib onları sirdaş tutmamalarını əmr edir və qəlblərində olan nifrətin göstərdiklərindən daha böyük olduğunu xəbər verir:

**Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik. (Ali İmran surəsi, 118)**

**Allahı zikr etməmələri**

Müsəlmanların ən əhəmiyyətli xüsusiyyətlərindən biri həmişə Allahı zikr etmələridir. Onlar danışdıqlarında daim Allahı tərifləyər, Onu dərin bir hörmətlə ucaldarlar. Müsəlmanlar arasında passivliyi yaymağa çalışan kəslər isə Allahı mümkün olduğu qədər az zikr edərlər. Hətta Allahın zikr edildiyi mühitlərdən mümkün olduğu qədər uzaqlaşmağa çalışarlar. Bir ayədə belə buyurulmuşdur:

**Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən Quranda Rəbbinin Tək Allah olduğunu yada saldığın zaman onlar bu dəvətə nifrət edərək arxalarını çevirib gedərlər. (İsra surəsi, 46)**

Allahın ayədə bildirdiyi kimi şeytan bu insanları üstələmiş və onlara Allahı zikr etməyi unutdurmuşdur. (Mücadilə surəsi, 19) Yemək, içmək, geyim, musiqi, idman kimi mövzularda olduqca şən və həvəsli söhbətlər aparan bu insanlar, Allahın xatırlandığı söhbətlərdə eyni gümrahlığa və şövqə sahib olmazlar. Olduqca durğun və qorxaq bir üslubdan istifadə edərlər. Lakin tamamilə səssiz qalmaqdan da çəkindiklərindən mümkün olduğu qədər əzbərdən söhbətlər aparar, söhbəti tezliklə başqa istiqamətlərə çəkərək dəyişdirməyə çalışarlar. Bu insanların səmimi olaraq Allahın Zatını tərifədiklərini, ucalığını izah etdiklərini eşitmək demək olar qeyri-mümkündür. Söhbətləri müsəlmanlardan fərqli olaraq səmimiyyətdən uzaq, süni bir üslubla dini mövzular haqqında öz aləmlərində çoxbilmişlik etməyə (İslam dinini tənzih edirik) yönəlmişdir. Allahın adını zikr etməkdən, imani mövzuları, gözəl əxlaqı danışmaqdan qəsdən çəkinirlər. Çünki səmimi qəlbdən tam olaraq mənimsəmədikləri bir inancı müdafiə etmək və izah etmək nəfslərinə ağır gəlir. Buna görə də Allahı xatırlayarkən çox vaxt yaddaşlarında gizli qalan məlumatları, başqalarından eşitdikləri müəyyən qəliblərlə dilə gətirər, səmimi bir söhbət apara bilməzlər.

Müsəlmanların isə qəlblərində və düşüncələrində həmişə Allah olduğu üçün dilə gətirdikləri düşüncələri də həmişə səmimi qənaətlərdir. Allah Quranda möminlərin bu düşüncə tərzlərini, "O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: **"Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!" (Ali İmran surəsi, 191)** ayəsiylə xəbər verir. Başqa bir ayəsində isə Allah, möminlərin qəlbinin ancaq Allahı zikr etməklə rahatlıq tapacağını bildirir:

**Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. (Rad surəsi, 28)**

Müsəlmanların Allaha olan sevgisi, passivliyi müdafiə edən insanların ticarətə, həyat yoldaşlarına, dostlarına, ailələrinə, ya da hər hansı bir mövzuya duyduqları aludəçilik və sevgiylə müqayisə edilə bilməyəcək qədər böyükdür. Buna görə də Allahı həmişə düşüncələrində və dillərində zikr edərlər. Allah bir ayəsində həqiqi dindarların Allaha duyduqları sevginin gücünü belə bildirir:

**İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür... (Bəqərə surəsi, 165)**

Həqiqi dindarların əksinə passiv bir xarakter göstərən kəslər, özləri Allahı zikr etməkdən uzaq olduqları kimi, başqalarını da uzaqlaşdırmağa çalışarlar. Allah, **“Allahın məscidlərində Onun adının zikr edilməsinə maneçilik törədənlərdən və onların viranə qalmasına çalışanlardan daha zalım kim ola bilər?...” (Bəqərə surəsi, 114)** ayəsiylə bəhsi keçən insanların bu cəhətlərinə Quranda diqqət çəkər.

Bu kəslər Allahın **“...sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan” (Məhəmməd surəsi, 30)** ayəsində bildirdiyi kimi müsəlmanlardan tamamilə fərqlənən danışıq üslublarıyla tanınarlar. İstifadə etdikləri forma, onların müsəlman əxlaqında olmadığı hissini verər. Müsəlmanların əsla fikir verməyəcəkləri sadə şeylərə çox əhəmiyyət verdiyi hissi oyandıran, hadisələrin Allahın nəzarəti altında olduğunu unutmuş bir insanın istifadə edə biləcəyi bir danışıq üslubları vardır. Bir neçə kitab və ya qəzet oxuyaraq əldə etdikləri məlumatları qarşı tərəfə bəzədilmiş cümləəriylə, imani sevgi və təvazökarlıqdan uzaq soyuq və saxtakar üslublarıyla izah edərlər. Onlar bunu müsəlmanlara qarşı bir “göstəriş etmək” vəsiləsi, ya da bir üstünlük olaraq görsələr də bunların heç biri qəlblərinə, gözlədikləri rahatlığı və hüzuru verməz. Onların vicdanlarındakı güclü təzyiqi və sıxıntını aradan qaldırmaz. Əksinə daim narahatçılıq və qorxu içində yaşamalarına səbəb olar.

### Mənfi təlqin və vəsvəsələrə açıq olmaları

Din əxlaqını tam mənasıyla yaşamaqda bitərəf davranan kəslərin imani zəiflikləri, cahillik inancına sahib insanların mənfi təlqinlərinə də açıq olmalarına səbəb olar. Özlərinə dinin lazım olmadığı, yalnız dünyaya bağlı bir həyat tərzinin kifayət edəcəyi

istiqamətində azğın şərhlər edilsə, bunu sevə-sevə təsdiqləyə bilərlər. Ya da bir adam gedib bu kəslərə "mən inkarçı oldum, artıq dinə və ibadətlərin vacibliyinə inanmıram, cahillik məntiqində bir həyat yaşayacağam" desə, bu da onların xoşuna gələr. Bu və bənzər təlqin və təkliflər qarşısında bu kəslərin iradəsi dərhal yox olar və din əxlaqından uzaq yaşayan insanlara asanlıqla uyğunlaşarlar. Bu cür insanların, namaz qıldıqları və ya bəzi ibadətləri yerinə yetirdikləri üçün müsəlman olduqlarını və belə qeyri-ilahi çağırışları yaxşı qarşılamayacaqlarını düşünmək isə avamca bir düşüncə olar.

Bu kəslər ətraflarında gördükləri ənənələrin təsiriylə birbaşa dini inkar etməkdən bəlkə də çəkinə bilər. Və buna görə də "Quran əxlaqından uzaq bir həyat yaşa" deyən adama qarşı rəsmi olaraq reaksiya verə bilərlər. Amma rəsmi olaraq qarşı çıxsalar da, praktikada cahillikdəki kimi bir həyat tərzi gördükləri təqdirdə bunu sevinclə qarşılayarlar. Belə bir həyat yaşamaq üçün güclü bir istək duyarlar. Açıq şəkildə "biz inkarçı olduq, dinə və Qurana inanmırıq" deməsələr də, bu həyatın içində yaşayan insanların göstərdikləri cahillik əxlaqını, çirkin davranış formalarını, batil inancları mənimsəyən və dəstəkləyən bir həyata müsbət baxarlar. Ətraflarındakı insanların axirətin varlığını tamamilə unudub dünyaya bağlanmalarından, saleh əməllər etmək əvəzinə boş və məqsədsiz bir həyat yaşamalarından, ehtirasla dünya mallarını çoxaltmalarından, etibar qazanmaq üçün həyasızca işlər görmələrindən, yaxud Allahı razı salmaq əvəzinə insanları razı salacaq bir həyat yaşamalarına narahat olmazlar. Hətta qəlbində xəstəlik olan insanlar, belə bir həyat tərzi yaşayan insanların bu azğın anlayışlarını və dünyagörüşlərini dəstəklədiklərini müxtəlif yollarla onlara bildirərlər. Allah Quranda belə insanların vəziyyətini bu cür izah edir:

**Qəlbi imanla sabit qaldığı halda haqqı danmağa məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır. Bu ona görədir ki, onlar dünya həyatını axirətdən üstün tuturlar. Həm də Allah kafirləri doğru yola yönəltmir. (Nəhl surəsi, 106-107)**

Allah iman etdikdən sonra şeytanın təlqinlərə aldanaraq cahillik inancına qayıdan insanların hər dövrdə müsəlmanların arasında ola biləcəklərinə bir çox ayəsində diqqət çəkər. Quranda diqqət çəkilən bu insan cəmiyyətlərindən biri də hz. Musanın qövmü içində yaşayan zəif iradəli insanlardır. Bunlar, Allahın sevdiyi və seçdiyi, üstün və gözəl əxlaqlı hz. Musanın təbliğini və mənəvi təlimini tam olaraq alan, göstərdiyi möcüzələrə şahid olan insanlardır. Hz. Musa bu insanları, Allahın izniylə "özlərini dözülməz işgəncələrə məruz qoyan" Fironun əlindən xilas etmiş, onlara Allahın ayələrini təbliğ

etmiş və hidayət gətirmələrinə vəsilə olmuşdur. Lakin hz. Musa Allahdan gələn vəhy üçün qövmündən ayrıldıqda bu insanlar, hz. Musanın yoxluğunu fürsət bilib Samiri adındakı azğın inancları olan birinin şeytani təlqinlərinə qapılmışlar. Özünü son ana qədər dindar biri kimi tanıdan Samirinin azğın təlqinləri, bir çox insana təsir etmiş və onları Allaha şərik qoşmağa yönəltmişdir.

Allah hz. Musaya qövmünün bu vəziyyətini, **"Allah buyurdu**: **"Səndən sonra qövmünü sınağa çəkdik. Samiri onları yoldan çıxartdı"" (Taha surəsi, 85)** deyə buyuraraq xəbər vermiş və bununla da hz. Musa öz qövmünün geri qayıtmışdır. Bundan sonra baş verənləri Allah ayələrində belə xəbər verir:

**... "Ey qövmüm! Məgər Rəbbiniz sizə gözəl bir vəd verməmişdimi? Doğrudanmı bu vaxt sizə uzun gəldi? Yoxsa Rəbbinizdən sizə bir qəzəb gəlməsini istəyib mənə verdiyiniz vədə xilaf çıxdınız?"**

**Onlar dedilər**: **"Biz sənə verdiyimiz vədə öz ixtiyarımızla xilaf çıxmadıq. Lakin biz o xalqın zinət əşyasından olan ağır yüklərlə yüklənmişdik. Biz onları oda atdıq. Həmçinin Samiri də onu oda atdı".**

**Samiri onlar üçün böyürən bir buzov heykəli düzəltdi. Buzova məftun olanlar: "Sizin də məbudunuz, Musanın da məbudu budur. Lakin o bunu unutmuşdur" – dedilər. (Taha surəsi, 86-88)**

Göründüyü kimi bu insanlar, verdikləri vədə öz ixtiyarlarıyla xilaf çıxmadıqlarını, Samirinin təsiriylə bunu etdiklərini dilə gətirmişlər. Samirinin azğın təlqinləriylə imanlarından dönüb böyürən bir buzov heykəli düzəltmişlər. Samiri deyilən azğın adam isə **"...Mən onların görmədiklərini gördüm. Mən o elçinin ləpirindən (Cəbrailin atının ayağı dəydiyi yerdən) bir ovuc torpaq götürdüm və onu bəzək əşyalarının üstünə atdım. Nəfsim məni buna sövq etdi" (Taha surəsi, 96)** ifadəsindən də başa düşüləcəyi kimi nəfsinə tabe olan bir adamdır. Bu qövm vicdanlarından istifadə etmədiklərindən bir adamın təlqinlərinin vəsiləsiylə Allaha qulluqdan imtina edib öz əlləriylə düzəltdikləri böyürən bir buzov heykəlinə meyil etmək azğınlığına düşmüşlər. Ancaq hz. Musa aralarına qayıtdıqda, düşdükləri vəziyyəti başa düşmələrinə vəsilə olmuşdur.

Hz. Musanın qövmünün başqa bir azğınlığı da, Allah özlərini dənizdən keçirərək, Fironu suda boğduqdan sonra, yenə doğru yoldan azıb cahil insanların həyat tərzlərini nümunə götürməyə başlamalarıdır. Bu ədabazlıqları o qədər yüksək bir səviyyəyə çatmışdır ki, bütlərə tapınan bir qövm gördükləri vaxt, hz. Musadan özlərinə məbud

düzəltməsini istəyəcək qədər çirkin bir cəsarət və əxlaqsızlıq göstərə bilmişdirlər. Mövzuyla əlaqədar Quranda bildirilən ayələr belədir:

**...Onlar öz bütlərinə tapınan bir qövmə rast gəldilər. Onlar dedilər: "Ey Musa! Onların məbudları olduğu kimi, bizim üçün də bir məbud düzəlt". Musa dedi: "Həqiqətən, siz cahil bir tayfasınız.**

**Şübhəsiz ki, bunların etiqad etdikləri əqidə məhvə məhkumdur, gördükləri işlər isə batildir".**

**Musa dedi: "O, sizi aləmlərdən üstün etdiyi bir halda, mən sizin üçün Allahdan başqa məbudmu axtaracağam?"**

**Bir zaman Biz sizi Fironun tərəfdarlarından xilas etdik. Onlar sizə ağır əzablar verir, oğlan uşaqlarınızı öldürür, qadınlarınızı isə sağ buraxırdılar. Bunda sizin üçün Rəbbiniz tərəfindən böyük bir sınaq var idi. (Əraf surəsi, 138-141)**

İmanları zəif olan bu insanların bütlərə ibadət edən bir qövmü görmələri doğru yoldan sapmalarına səbəb olmuşdur. Tezliklə bu azğın inanca meyil etməyə başlamışlar. Din əxlaqından uzaqlaşdıran təlqinlərin təsirinə düşmək, tarix boyu passivliyi müdafiə edən bütün insanların ortaq bir xüsusiyyətidir.

Allah, Quranda bu insanların fitnəkar xarakterlərini, **"əgər Mədinənin hər tərəfindən üstlərinə hücum edilsəydi, sonra da onlardan fitnə törətmək (imandan dönmək) tələb olunsaydı, onu mütləq edər və cüzi şey istisna olmaqla bunda ləngiməzdilər (Əhzab surəsi, 14)** ayəsiylə bildirmişdir. Başqa bir ayədə isə Allah **"...Onlar hər dəfə fitnəyə qaytarıldıqda gözüyumulu ona qoşularlar..." (Nisa surəsi, 91)** buyurur.

Bu insanların bu qədər fitnəyə meyilli şəxsiyyətlərinin əsasında, əsasən şeytanın təlqininə meyilli olmaları durur. Allaha iman və itaətdən uzaqlaşan bu kəslər, Allahın **"insanlardan eləsi də var ki, heç nə bilmədiyi halda Allah haqqında mübahisə edir və hər bir asi şeytana itaət edir (Həcc surəsi, 3)** ayəsində bildirdiyi kimi şeytanın iziylə gedərlər. Ayədə bildirilən "hər bir asi şeytana itaət edir" ifadəsi isə çox diqqət çəkicidir. Çünki bu kəslər, həyatlarının məqsədi yalnız Allahın rizası, rəhməti və cənnəti olan müsəlmanların arasında yaşayarkən, onlara bənzəmək və Quran əxlaqına tabe olmaq imkanları olduğu halda, bilə-bilə, azğınlıq yolunu seçərlər. Allah bu vəziyyətlərini bir ayəsində **"...Onlar bütün möcüzələri görsələr də onlara inanmazlar. Onlar doğru yolu görsələr, ora yönəlməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bu ona**

**görədir ki, onlar ayələrimizi inkar edir və onlara məhəl qoymurdular" (Əraf surəsi, 146)** deyə buyuraraq bildirir.

Buna görədir ki, bu insanların zehinləri həmişə şeytanın fısıldamaları və onun təlqin etdiyi vəsvəsələrlə doludur. Allahın **"Şeytan onlara vədlər verir və onları xülyalara salır. Lakin şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir" (Nisa surəsi, 120)** ayəsində bildirdiyi şeytani vədlər, bu insanları Allahın yolundan sapdıracaq din əxlaqından uzaq bir həyat tərzinə çəkir. Buna görə də bəzi dünyəvi narahatlıqlar daşıyaraq din əxlaqını yaşamaqdan uzaqlaşıb cahillik həyatını mənimsəyən bu insanlar, əslində şeytanın bu yalan vədlərinə aldanan insanlardır. Allah bu həqiqəti, **"hidayət yolunu tanıdıqdan sonra haqdan dönüb geriyə üz tutanlara şeytan günah işləri gözəl göstərdi və onlara uzun ömür vəd etdi" (Məhəmməd surəsi, 25)** ayəsində də açıq şəkildə bildirir.

Vəsvəsələrə olduqca açıq olduqlarından, cahillik əxlaqı içində yaşayan insanlardan iş, nikah, təhsil kimi maraqlarına daha uyğun olacağını düşündükləri bir təklif aldıqları vaxt dərhal ona yönələr, Allahı və din əxlaqını unudarlar. Halbuki əgər bu təkliflər Allahın rizasına uyğundursa onsuz da müsəlmanca bir əxlaq göstərərək də bu imkanı qiymətləndirə bilərlər. Ancaq onlar, özlərinə din əxlaqının yaşandığı mühitdən uzaqlaşmaq üçün bir bəhanə axtardıqlarına görə, bu vəsiləylə dərhal müsəlmanların arasından uzaqlaşarlar. Eynilə bu kəslər tətil, alış-veriş, əyləncə kimi mövzularda da yenə cahil cəmiyyətin təlqinlərinə çox açıqdırlar. Allah rizasına uyğun olan bir iş görmək və ya ibadət etmək əvəzinə rahatlıqla əylənməyi seçə bilərlər. Peyğəmbərimiz (s.ə.v)-in dövründə, bir əyləncə gördükləri vaxt Peyğəmbərimiz (s.ə.v)-i tərk edib, cahil insanlarla birlikdə boş işlər görənlərin rəftarları bu insanlarla böyük oxşarlıq təşkil edir. Allah bu insanların vəziyyətini belə xəbər vermişdir:

**Onlar ticarət və ya əyləncə gördükləri zaman dağılışıb ona tərəf qaçdılar və səni minbərdə ayaq üstə olduğun halda tərk etdilər. De: "Allah yanında qazanacağınız savab əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ən yaxşı ruzi verəndir". (Cümə surəsi, 11)**

Şübhəsiz ki, bu insanların şeytanın təlqin etdiyi fikirlərə bu qədər açıq olmaları Allahın bir hikmətidir və bunda müsəlmanlar üçün böyük xeyirlər vardır. Çünki qəlbində xəstəlik olan insanlarla Allahdan qorxan səmimi insanlar bu vəsiləylə bir-birindən ayrılır və müsəlmanlar bu insanları tanıya bilirlər. Allah bu həqiqəti **"Belə edər ki, şeytanın gizli təlqini qəlbində xəstəlik olanlar və qəlbi sərt olan insanlar üçün bır sınaq vasitəsinə çevrilsin. Həqiqətən, zalımlar uzaq bir ayrılıq içindədirlər". (Həcc surəsi, 53)** ayəsiylə xəbər verir. Başqa bir ayəsində isə Allah, **"Allah murdarı pakdan ayırsın,**

**murdarları bir-birinin üstünə qoyub bir yerə yığsın və onları Cəhənnəmdə yerləşdirsin..." (Ənfal surəsi, 37)** deyə buyurur və bunun müsəlmanlara yüngüllük verən bir təmizlik olduğuna işarə edir.

### Rəftar və danışıqlarının səmimiyyətə deyil, təqlidə əsaslanması

Müsəlmanlar arasında yaşayan passivlik tərəfdarı kəslərin ən diqqət çəkici xüsusiyyətlərindən biri də, səmimiyyətsizliklərdir. Bu, danışıqlarında və rəftarlarında asanlıqla hiss edilə bilən bir vəziyyətdir. Müsəlmanların arasında özlərini dindar kimi göstərə bilmək məqsədiylə bəzi ibadətləri yerinə yetirər, müsəlmanlar kimi rəftarlar göstərərlər, onlar kimi danışarlar. Lakin bütün bunları inandıqları üçün deyil, müsəlmanlar arasında özlərinə bir yer tuta bilmək üçün təqlidi olaraq həyata keçirərlər. Bütün hal və rəftarlarında müsəlmanları təqlid etdiklərindən ötrü, kənardan baxan bir insan ilk baxışda bu kəsləri müsəlmanlardan hər hansı biri kimi zənn edə bilər. Bu kəslər Allahın, **"Vay halına namaz qılanların, o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar" (Maun surəsi, 4-6)** ayələrində bildirdiyi kimi namaz qılar, **"Onların sərf etdiklərinin qəbul olunmasına yalnız o mane olur ki, onlar Allaha və Onun Elçisinə küfr edir, namaza tənbəlliklə qalxır və mallarını könülsüz xərcləyirlər". (Tövbə surəsi, 54)** ayəsində bildirildiyi kimi mallarından ehtiyac içində olan insanlara göstəriş üçün də olsa bəzən kömək edə bilərlər. Ancaq yenə ayələrdə aydın şəkildə göründüyü kimi, Rəbbimiz səmimiyyətsizlikləri üzündən onların ibadətlərini qəbul etməyəcək.

Formal xarakterli ibadətlərlə yanaşı müsəlmanların rəftar və danışıqlarındakı bir çox təfərrüatı da təqlid edə bilərlər. Müsəlmanların bir mövzunu dilə gətiriş formalarından, istifadə etdikləri üslubdan, oturub-durmalarına qədər bir çox zahiri xüsusiyyətlərini təqlid edə bilərlər. Münafiq xarakterli insanların bu xüsusiyyətlərini Allah Quranda **"Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər..." (Münafiqun surəsi, 4)** ayəsiylə xəbər vermişdir.

Halbuki səmimiyyətin təqlidi yoxdur. Bir insanın zahiri xüsusiyyətləri təqlid edilə bilər, lakin səmimiyyət tam olaraq yaşanmadan adamın göstərə biləcəyi bir xüsusiyyət deyil. Buna görə də onların həqiqi üzlərini ancaq möminlər Quranın özlərinə yol göstərməsiylə hiss edib görə bilərlər. Allah Quranda Peyğəmbərimiz (s.ə.v)-in dövründə də din əxlaqını yaşamaqda qəsdən passiv davranan bu tip insanların olduğunu bildirir. Bu kəslər müsəlmanları təqlid edərək hz. Məhəmməd (s.ə.v)-in yaxınlarının arasına

qədər girə bilmişdirlər. Allah istədiyi təqdirdə bu cür insanları Peyğəmbərimizə üzlərindən tanıdacağını xəbər vermişdir:

**Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan... (Məhəmməd surəsi, 30)**

Bu insanlar səmimiyyətsiz və süni rəftarlarla özlərini müsəlman kimi tanıtmağa çalışarkən əslində içlərində fırtınalar qopar. Qəlbən inanmadıqları, təsdiq etmədikləri bir həyatı yaşamaq, həmişə təqlid etmək məcburiyyətində olmaq onlar üçün bir növ əzabdır. Göstəriş üçün namaz qılmaq, gözəl söz danışmaq, təvazökar görünmək, sevirmiş kimi etmək, içindən gəlmədiyi halda, islamın xeyri naminə faydalı fəaliyyətlər göstərmək dinə və müsəlmanlara qarşı daxilən kin bəsləyən bu insanlar üçün heç də asan deyil. Yenə də mənfəətlərinə daha uyğun olduğunu düşünərək, nəfsləriylə zidd düşən bir mühit yaranana qədər öz-özlərinə meydana gətirdikləri bu saxta şəxsiyyətdə yaşamaqdan imtina etməzlər. Ancaq nəfslərinə xeyli ağır gələn böyük bir çətinliklə qarşılaşdıqları təqdirdə artıq təqlid edəcək gücləri qalmaz və yavaş-yavaş həqiqi üzləri aşkara çıxarmağa başlayar. Ümid etdikləri kimi mənfəət əldə edə bilmədiklərini gördükləri vaxt əvvəllər təqlidi olaraq etdiklərini də etməməyə və kinlərini aşkara çıxartmağa başlayarlar.

Din əxlaqını yaşamaqda passiv davranan bu kəslər bəzən də insanların diqqətini özlərindən yayındırmaq üçün təqlid qabiliyyətlərindən istifadə edərlər. Xüsusilə etdikləri səmimiyyətsiz rəftarlar müsəlmanlar tərəfindən başa düşüldükdə, insanların diqqətini özlərindən yayındırmaq üçün düşdükləri vəziyyətə uyğun gördükləri bir şəxsiyyəti təqlid edərlər. Yerinə görə özlərini saf, uşaq kimi, hadisələri qavraya bilməyən kəslər olaraq tanıdar, yerinə görə də bunun tam əksi yırtıcı, mübahisəçi olduqca tərs və təcavüzkar bir şəxsiyyətə bürünərlər. Bunu edərkən öz aləmlərində müsəlmanları aldatdıqlarını zənn edərlər. Halbuki Allahı və iman edənləri aldatdığını düşünən kimsə, yalnız öz özünü aldadır:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

**Üzlərinin nursuz olması**

Özlərini müsəlman kimi tanıtmalarına baxmayaraq əslində dinə və müsəlmanlara qarşı nifrət bəsləyən insanların üzləri səmimi müsəlmanlarda olduğu kimi təmiz və nurlu olmaz. Allah Quranda müsəlmanlar üçün **"...Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir..." (Fəth surəsi, 29)** buyurur və üzlərindən müsəlman olduqlarının başa düşüldüyünə diqqət çəkir. Başqa bir ayədə isə, müsəlmanların cənnətdə də üzlərində parlaqlıq və nurlu bir ifadə olacağı belə bildirilmişdir: **"Sən onların çöhrəsində səadət parlaqlığı görəcəksən". (Mutaffifin surəsi, 24)**

Bəhsi keçən insanların üzlərindəki ifadə isə bunun tam əksinə olduqca əsrarəngiz və qaranlıqdır. Üzlərində səmimi, etimad təlqin edən, parlaq bir ifadə meydana gəlməz. Bunun səbəbi əslində bu insanların ruhlarında yaşadıqları qaranlıqdır. Pis işlər görmələrinə və müsəlmanlara qarşı yalan danışdıqlarına görə Allah bu insanların qəlbinə sıxıntılı, narahat və həyəcan dolu bir qaranlıq çökdürər. Qəlblərindəki bu güclü təzyiq isə üzlərində nursuzluq kimi əks olunar. Allah ayəsində bu insanlardakı nursuzluğu belə bildirmişdir:

**Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və orada əbədi qalacaqlar. (Yunis surəsi, 27)**

Peyğəmbərimiz (s.ə.v) də bu cür insanların nursuzluqlarına diqqət çəkmiş və yalan danışdıqlarından ötrü inanclarını itirdiklərini ifadə etmişdir:

Qul yalan danışmağa və yalan danışmaq niyyətini davam etdirdikdə bir vaxt gələr ki, qəlbində əvvəlcə qara bir nöqtə əmələ gələr. Sonra bu nöqtə böyüyər və qəlbinin hamısı qapqara olar. (Muvatta, Kelam 18- 2, 990)

Həqiqi bir müsəlmanın üzü isə, **"Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar." (Yunis surəsi, 26)** ayəsində bildirildiyi kimi həmişə nurludur, ətraflarındakı insanlara da yüngüllük verər. Ayədə işarə edildiyi kimi yaxşı işlər görənlərə buna uyğun gözəl bir qarşılıq vardır. Bəhsi keçən insanlara da yenə öz əxlaqsızlıqlarına uyğun bir qarşılıq var. Allah bir ayəsində dünyada etdiklərindən ötrü üzləri qaralan bu insanların axirətdə də bənzər bir vəziyyətdə olacaqlarını bildirir:

**O gün neçə-neçə üzlər ağaracaq, neçə-neçə üzlər də qaralacaqdır. Üzləri qaralan kəslərə: "İman gətirdikdən sonra kafirmi oldunuz? Elə isə, küfrünüzə görə dadın əzabı!" - deyiləcəkdir. (Ali İmran surəsi, 106)**

Bu kəslərin baxışlarındakı pozuqluğun ortaya çıxdığı anlardan biri də, özlərində İslama xidmət etmələrinin istəndiyi və ya onlara görə rahatlıqlarının pozulacağını düşündükləri anlardır. Hz. Məhəmməd (s.ə.v) dövründə yaşayan bənzər əxlaqdakı insanlardan, Peyğəmbərimiz (s.ə.v.)-lə birlikdə döyüşə çıxmaları istəndiyində baxışlarında olan ifadə bu vəziyyətin nümunələrindən biridir. Ayədə belə bildirilmişdir:

**Möminlər: "Kaş cihada dair bir surə nazil olaydı!"- deyirlər. Hökmü bəlli bir surə nazil olub orada döyüş yada salınan kimi qəlbində xəstəlik olanların sənə ölüm ayağında bayılan kimsənin baxışı ilə baxdıqlarını görərsən... (Məhəmməd surəsi, 20)**

## "Mallar və oğullar ehtirası" ilə din əxlaqından güzəştə getmələri

Allah dünyada qullarını bir çox mövzu ilə sınayır. Allahın dünyada yaratdığı bu imtahan mövzularından biri də mal və uşaq sahibi olma istəyidir. Allah malların və oğulların dünyaya aid müvəqqəti bəzəklər olduğunu ayədə belə bildirir:

**Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir. (Kəhf surəsi, 46)**

Peyğəmbərimiz (s.ə.v) bir hədisində bu həqiqətə belə işarə etmişdir:

Hər ümmət üçün bir fitnə vardır, mənim ümmətimin fitnəsi də mal-dövlətdir.

Rəbbimiz, mal-dövlətin və uşaqların insanlar üçün bir imtahan olduğunu bildirmişdir. (Ənfal surəsi, 28) Buna görə də, möminlər Allahın dünya həyatında özlərinə verdiyi nemətlərin bir imtahan olduğunu bilər və buna görə davranarlar. Allah özlərinə nemət verdikdə buna sevinər, şükür edər və bu nemətlərdən Allah yolunda ən yaxşı şəkildə istifadə etməyə çalışarlar. Əgər Allah mal-dövlət verirsə, bu mal-dövləti islamın

xeyri üçün ən yaxşı şəkildə istifadə etməyə yol axtararlar. Allahın özlərinə uşaq vermədikdə isə, uşaqlarını səmimi bir mömin olaraq böyütmə mövzusunda əllərindən gələni edərlər. Bütün bunları edərkən həmişə ilk növbədə Allahın rizasını qazanmağa çalışar və həmişə İslama xeyir verəcək şəkildə fəaliyyət göstərərlər. Bundan əlavə, əgər Allah onlara verdiyi bu nemətləri müəyyən bir səbəblə onlardan almalı olsa, yenə çox təslimiyyətli və təvazökar davranar, Allahın yaratdığı hər şeydə bir xeyir olduğunu bilərlər.

Quran əxlaqını yaşamaq mövzusunda bitərəf davranan kəslər isə, Allahın onlara nəsib etdiyi mal-dövlət və uşaqlar mövzusunda çox fərqli bir rəftar göstərərlər. Mal-dövlətə qarşı duyduqları hərislik və düşgünlük, hadisələrə baxışlarında tamamilə öz əksini tapmışdır. Allahın özlərinə nəsib etdiyi mal-dövləti dünya həyatının keçici bir zinəti kimi qiymətləndirmədikləri üçün, sahib olduqlarını zənn etdikləri hər şeyi hərisliklə qorumağa çalışarlar. Bu qoruyuculuq xəsisliyə qədər gedib çatır. Bu əsnada sahib olduqlarını özlərinə verənin Allah olduğunu ağıllarına gətirməz, müxtəlif hiylələr quraraq əllərindən gəldiyi qədər bunları özlərinə saxlamağa çalışarlar. Allah onların bu xəsisliklərini Quranda belə bildirir:

**Budur, siz Allah yolunda malınızdan xərcləməyə dəvət edilirsiniz. Aranızda isə simiclik edənlər də tapılır. Kim simiclik etsə, ancaq öz əleyhinə etmiş olar. Allah Zəngin, siz isə kasıbsınız... (Məhəmməd surəsi, 38)**

Özlərinə aid əşyaları diqqətlə qoruyar, ancaq başqa bir möminin malını heç də özlərininki kimi diqqətlə qorumazlar. Öz əşyalarına olan qoruma hissi onlarda bir cür refleks kimi işləyər. Digər şəxslərin mallarına qarşı isə diqqətdən kənar, hətta bədxərc deyilə biləcək bir tərzdə yanaşarlar. Bunlardan olduqca nifrətlə istifadə edər, möhkəm və təmiz qalmalarına diqqət yetirməzlər.

Eyni münasibəti özləriylə əlaqədar digər mövzularda da göstərərlər. Öz yeyib-içmələrinə, sağlamlıqlarına çox diqqət göstərər, amma möminlərin bu ehtiyacları üçün heç bir səy göstərməzlər. Bir insanın öz sağlamlığını qoruması, yeməyinə, içməyinə diqqət yetirməsi, xəstələnməmək üçün səy göstərməsi olduqca ağıllı bir davranışdır. Ancaq möminlər Allahdan qorxduqları və vicdanlı olduqları üçün mömin qardaşlarını da özləri qədər hətta özlərindən daha çox bir həssaslıqla qoruyar və nəzarət edərlər. Allah möminlərin bu rəftarını Quranda belə bildirir:

**...Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar... (Həşr surəsi, 9)**

Ancaq bu kəslər həmişə ilk növbədə özlərini qoruyar, hətta özləri üçün möminlərin həyatını təhlükəyə atmaqdan belə çəkinməzlər.

Bu kəslərin uşaqlarına göstərdikləri qayğı və diqqət isə Allaha şirk qoşmağa qədər gedib çıxa bilər. Allah bir müsəlmana bir uşaq nəsib etsə, o uşağına faydalı və təmiz bir həyat təqdim etməli, onun Allaha iman edən səmimi bir mömin olması üçün səy göstərməlidir. Ancaq bu kəslər həm uşaqlarının saleh bir müsəlman olması üçün lazım gələn diqqəti göstərməz, həm də onları özlərinin mübarizədən geri qalmalarına bir bəhanə kimi göstərmək istəyərlər. Allah Quranda, Peyğəmbərimiz (s.ə.v)-in dövründə də münafiqlərin bənzər yolla öz sosial vəziyyətlərini irəli sürdüklərini bildirmişdir:

**Geri qalan bədəvilər sənə: "Var-dövlətimiz və ailələrimiz bizi döyüşə getməkdən yayındırdı. Allahdan bizim üçün bağışlanma dilə!" – deyəcəklər. Onlar qəlblərində olmayanları dilləri ilə deyirlər... (Fəth surəsi, 11)**

**...İçərilərindən bir qismi isə: "Evlərimiz nəzarətsiz qalıb" – deyərək Peyğəmbərdən izin istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər. (Əhzab surəsi, 13)**

### Qısqanc və təkəbbürlü olmaları

Allah hər insana anadangəlmə bəzi xüsusiyyətlər və qabiliyyətlər vermişdir. Bu xüsusiyyətlər mövcud olan digər hər şey kimi, bir tale əsasında yaradılmışdır. Hər kəsin gözəlliyi, zəkası, qabiliyyətləri və digər bütün xüsusiyyətləri Allahın dilədiyi taledədir. Bu aydın həqiqətə baxmayaraq bəzi insanlar xüsusiyyətlərinin özlərinə məxsus olduğunu bilərlər. Böyük bir cəhalətlə, **"...Onlar özləri haqqında yüksək fikirdə oldular..." (Furqan surəsi, 21)** ayəsində xəbər verildiyi kimi, bu xüsusiyyətlərindən ötrü özləri haqqında yüksək fikirdə olarlar. Məsələn, bəzən unutduğu üçün qurduğu cümləni belə tamamlaya bilməyən və Allah diləməyi təqdirdə əsla xatırlamayacaqlarına baxmayaraq, sahib olduqları biliklərin özlərinə məxsus olduğunu zənn edərlər. Ya da bunun əksinə digər insanlara nəzərən daha qüsurlu görünən bir cəhətlərini problem halına gətirərlər. Beləliklə də, Allahın hər şeyin yaradıcısı və hakimi olduğunu unudaraq,

özlərini müstəqil bir varlıqmış kimi (Allahı tənzih edirik) qiymətləndirərlər. Onların bu yanlış məntiqlərinin əsasında isə eqoizm durur. Halbuki, Allah bütün varlıqlar kimi özlərini də yoxdan var etmişdir, onlar da bütün varlıqlar kimi xeyli acizdirlər. Onların da, bütün aləmlərin də sahibi Allahdır. Özü dərk etsə də, etməsə də Allaha boyun əymişdir və Onun diləməsi istisna olmaqla tək bir addım atması, tək bir söz belə deməsi qeyri-mümkündür. Ağlından keçən hər düşüncəni, gizlədiyi və ya aşkara çıxartdığı hər mövzunu, çəkdiyi hər əziyyəti, yaşadığı hər çətinliyi, ürəyinə gələn hər vəsvəsəni, etdiyi hər duanı, hiss etdiyi hər sevinci, xoşbəxtliyi, hüzuru yaradan Allahdır və bunları bütün incəlikləriylə birlikdə bilir. Hud surəsinin 56-cı ayəsində bildirildiyi kimi Allahın,"... Elə bir canlı yoxdur ki, Allah onun kəkilindən tutmuş olmasın..."

Bu şəxslərin bu həqiqətləri bildikləri halda görməzlikdən gəlmələrinin səbəbini Allah ayəsində belə bildirər:

**Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu! (Nəml surəsi, 14)**

Müsəlmanlar bu kəsləri daima həqiqətlərə dəvət etmələrinə baxmayaraq, onlar Allahın **"ayələrimiz onlara oxunduğu zaman sanki onları eşitmirmiş, qulaqlarında tıxac varmış kimi təkəbbürlə üz çevirər..." (Loğman surəsi, 7)** ayəsində xəbər verildiyi kimi haqdan üz döndərərlər. Öz-özlərini gözlərində elə böyüdərlər ki, Allahın, **"...Özümüzdən olan bir adamamı tabe olacağıq? Onda biz azğınlığa düşər və ağılsız iş görmüş olarıq!" (Qamər surəsi, 24)** ayəsində bildirdiyi həm bir təkəbbür, həm də səmimi iman gətirənlərə qarşı qısqanclıq içindədirlər.

Müsəlmanları passivləşdirməyi qarşılarına məqsəd qoyan bu kəslər qürurlu və qısqanc rəftarlarıyla diqqət çəkən insanlardır. Bu insanlar, kitabın əvvəlindən bəri bildirdiyimiz kimi, müsəlmanlara qarşı qəlblərində nifrət gizlədən və onlara gələcək hər cür xeyirə mane olmağı qarşılarına məqsəd qoyan kəslərdir. Müsəlmanların sahib olduqları gözəllik və nemətlərdə bir artım olması bu insanlara ciddi bir çətinlik verər. Müsəlmanlara qarşı duyduqları qısqanclıq elə bir səviyyəyə çatır ki, möminlərin yaşadıqları yerlərin gözəlləşməsi, sahib olduqları imkanların artması onlarda böyük narahatlıq meydana gətirər. Hətta bu nemət artışı onları o qədər narahat edər ki, buna görə də aralarında fiziki çətinliklər çəkənlər belə olar.

Allah, bu kəslərin möminlərin xeyrinə baş verən hadisələrdən keçirdikləri narahatlıq hissini, "Sənə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sənə bir müsibət üz versə: **"Biz ehtiyat tədbirimizi əvvəlcədən görmüşük!" – deyər və sevinə-sevinə çıxıb**

**gedərlər" (Tövbə surəsi, 50)** ayəsiylə möminlərə xəbər vermişdir. Kiçik-böyük, maddi-mənəvi bütün gözəlliklərin və nemətlərin artması müsəlmanlara şükür və sevinc vəsiləsi olarkən, bu insanların qısqanclıqlarının daha da artmasına səbəb olur.

Allahın **"...Rəbbinizdən bir xeyir nazil olmasını istəmirlər. Allah isə mərhəmətini istədiyi şəxsə məxsus edir..." (Bəqərə surəsi, 105)** ayəsində bildirdiyi kimi, Allahdan müsəlmanlara xeyir və mərhəmət nazil olmasını istəməzlər. Hətta istəməməkdən də əlavə, **"Sizə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz..." (Ali İmran surəsi, 120)** ayəsində bildirildiyi kimi, müsəlmanların arasında yaşamalarına baxmayaraq onlara fəlakət üz verməsinə sevinərlər. Bu ruh halları onların həqiqi niyyətlərini göstərən açıq bir dəlildir.

# NƏTİCƏ

Müsəlmanların şövqünü yox etməyi qarşılarına məqsəd qoyan, xüsusilə özlərini yubandıraraq dinin lehindəki fəaliyyətləri ləngitmək istəyən kəslər bu məqsədlərinə heç vaxt nail olmayacaqlarını yaxşı bilməlidirlər. Kainat və içindəki bütün varlıqlar, Allahın müəyyənləşdirdiyi taleyə görə yaşayarlar. Dənizin dibindəki tək bir qum dənəsindən, bir meteorun kosmosdakı yeri və hərəkət sürətinə qədər irili-xırdalı hər şeyin keçmişi, indiki halı və gələcəyi əvvəldən müəyyənləşdirilmiş bir taleyə görədir. Buna görə də Rəbbimiz bəhsi keçən insanların qurduqları planları və bu planları həyata keçirmək üçün tətbiq etdikləri hiyləgər üsulları bilir və Rəbbimiz "inkar edənlərə möminləri məğlub etməyə əsla yol verməyəcəyini" vəd etmişdir. Bu insanların, müsəlmanları çətin vəziyyətə salmaları da, Allahın izniylə, mümkün ola bilməz. Rəbbimizin vədinə görə, Quran əxlaqı yayılacaq və yer üzünə bu əxlaqın nəticəsi olan sülh, hüzur və təhlükəsizlik hakim olacaq. Müsəlmanları hiyləgərcəsinə qurduqları planlarla passivləşdirməyə çalışan bu kəslər də gözlədikləri nəticəyə çata bilməyəcəklər.

Peyğəmbərimiz (s.ə.v)-in, "Kim möminə zərər versə Allah da onu ziyana uğradar. Kim də möminə əziyyət versə, Allah da ona əziyyət verər". (Tirmizi, Birr 27-1941) hədisində buyurduqları kimi, Allah pis niyyətləri müqabilində bu insanların özlərini ziyana uğradacaq.

Unudulmamalıdır ki, bu kəslərin müsəlmanlarla birlikdə fikri mübarizədə iştirak etməmələrinin çox xeyir və hikməti vardır. Bu kəslərin passivləşmələri əslində onların düşündüyü kimi din əxlaqının yayılmasını ləngidən və müsəlmanların fəaliyyətlərinə mane olan bir səbəb deyil, əksinə onların fəaliyyətlərini sürətləndirən, yol açan bir təsirə malikdir.

Allah bir ayəsində, **"Əgər onlar sizinlə birgə döyüşə çıxsaydılar, ancaq işinizdə qarışıqlığı artırar və sizi fitnəyə məruz qoymaq üçün tez aranıza girərdilər..." (Tövbə surəsi, 47)** deyə bildirərək bu həqiqətə diqqət çəkmişdir. Beləcə Allah, müsəlmanları onların səbəb olacağı pislik, zərər və fitnədən qoruyur. Başqa bir ayədə isə Allahın səmimi müsəlmanları hər cür tələdən qoruduğu belə bildirilmişdir:

**Şübhəsiz ki, Allah iman gətirənləri mühafizə edir. Həqiqətən, Allah heç bir nankor xaini sevmir. (Həcc surəsi, 38)**

Bununla yanaşı müsəlmanlar, özlərini passivləşdirməyi qarşılarına məqsəd qoyan, şövqlərini və əzmlərini yox etmək istəyən insanların təlqinlərinə qarşı çox diqqətcil

olmalıdırlar. Unudulmamalıdır ki, bu cür insanlar çox vaxt açıq şəkildə fəaliyyət göstərmir, "yaxşılıq etdikləri" iddiasıyla ortaya çıxaraq gizli və məkrli təlqinlər edirlər. Özlərinə Qurani Kərimi və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini rəhbər tutan saleh müsəlmanlar isə, Allahın izniylə, bu təlqinlərin təsiri altında qalmayacaq, böyük bir şövq və həyəcanla Allah yolunda fəaliyyətlərinə davam edəcəklər. Allah, səmimi möminləri özlərindən əvvəlkilər kimi müvəffəqiyyətə çatdıracağını vəd etmişdir və bu vəd, möminlərin şövqlərini, əzmlərini və qətiyyətlərini gücləndirən çox əhəmiyyətli bir müjdədir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün

olduğu nəticəsinə gəlir”. *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: **“Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi

əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

### Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki

məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir

canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə

bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

“Passiv insan” dedikdə xarakter etibariylə şövqsüz, ətrafında baş verən hadisələrlə maraqlanmayan, insanların sıxıntıları və problemləri ilə maraqlanmayan, ətrafındakı çatışmazlıqlara çıxış yolu tapmaq niyyətində olmayan, utancaq, öz kiçik aləmində yaşayan bir insan modeli ağla gəlir. Bu kitabda, bəhsi keçən durğun xarakteri qəsdən nümayiş etdirərək bu çirkin modeli hiyləgərcəsinə müsəlmanlar arasında yaşatmağa çalışan insan xarakteri izah edilir. Müsəlmanları passivləşdirməyi qarşılarına məqsəd qoyan bu insanlar, möminlərlə birlikdə yaşayan, iman etdiyini deyən ancaq münafiq xarakterli rəftarlar göstərən və ya qəlblərində xəstəlik olan insanlar ola bilər. Və ya hələ imanı tam olaraq qavraya bilməmiş, Allahı lazım olduğu kimi təqdir edə bilməyən zəif imanlı kəslər ola bilər. Bu insanlar, möminlərin arasında olmalarına baxmayaraq din əxlaqını başa düşməkdə və yaşamaqda bitərəf, zəif davranar, digər möminlərin də özləri kimi olmalarını istəyərlər. Bunlarla yanaşı, cahillik əxlaqını yaşayan və ya inkar edənlər arasında da müsəlmanları zəiflətmək, şövqlərini və həyəcanlarını yox etmək istəyən kəslər ola bilər və bu insanlar da möminlərin fəaliyyətlərinə maneə törədə bilmək üçün var gücləriylə çalışarlar.

Özlərinə Qurani Kərimi və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini rəhbər tutan saleh müsəlmanlar, Allahın izniylə, bu təlqinlərin təsiri altında qalmayacaq, böyük bir şövq və həyəcanla Allah yolunda fikri mübarizələrinə davam edəcəklər. Allah, səmimi möminləri özlərindən əvvəlkilər kimi müvəffəqiyyətə çatdıracağını vəd etmişdir və bu vəd, möminlərin şövqlərini, əzmlərini və qətiyyətlərini gücləndirən çox əhəmiyyətli bir müjdədir.